Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 183 (8206) CÜMƏ, 23 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Nəcib təşəbbüsün və xeyirxahlığın ünvanı

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim məcburi köçkünlərin yanındadır

**Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı sağlam əqidəli, xalqa və dövlətə sədaqətli xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olub. Bu gün də belədir. Onlar ona görə cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilirlər ki, öz üzərlərinə düşən sosial, siyasi, eləcə də mədəni məsuliyyəti doğru-düzgün dəyərləndirir, bunun nəticəsində isə xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.**

İnsanlara mənəvi saflıq, düzgünlük və ədalət, humanizm, şəfqət, yaxşılıq etmək və kömək göstərmək kimi bəşəri dəyərlərin təbliğində istisnasız xidmətlər göstərən Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın haqqında söz düşəndə mütləq şəkildə onun xalqın sevimlisi, əzizi olduğu dilə gətirilir. Məhz bu kimi bəşəriliyinə, xeyirxahlığı, humanizmi əməli fəaliyyətində təbliğ etdiyinə görə Mehriban xanım Əliyeva II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilib.

Azərbaycanın Birinci vitse-prezidentinin çoxşaxəli fəaliyyəti nəinki respublikamızda, eləcə də ölkə hüdudlarından kənarda daim yüksək qiymətləndirilib. Xüsusilə mənəvi və mədəni dəyərlərin qorunması üçün verdiyi töhfələr onu bir tolerantlıq rəmzinə çevirib. Fəaliyyətində daim humanizm prinsiplərini əsas götürən Mehriban xanım Əliyevanın sivilizasiyalar və dinlərarası dialoqdakı xidmətləri də ona beynəlxalq aləmdə böyük nüfuz qazandırıb.

Bu məram və məqsədlə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ən bariz nümunədir. Təsadüfi deyil ki, 2004-cü ildə UNESKO-nun, 2006-cı ildə isə ISESCO-nun xoşməramlı səfiri seçilən Mehriban xanım Əliyeva nəcib əməllərinə görə digər çoxsaylı beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə də layiq görülüb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva özünün humanizm siyasəti ilə fəaliyyətini davam etdirir və ölkənin ən həssas təbəqəsi sayılan, sosial problemlərlə baş-başa qalan məcburi köçkünlərin yanındadır, onların qayğılarını çəkməkdə, problemlərinin həllinə dəstək olmaqdadır. Bu il aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Bakı şəhərində, Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşmış məcburi köçkünlərlə görüşündə də bütün bu xeyirxahlıq missiyası özünü təsdiqlədi.

150 məcburi köçkün ailəsinin məskunlaşdığı həmin yataqxanada olarkən yurd-yuvasını itirmiş bu insanlar dövlətin onlara göstərdiyi diqqət və qayğıdan danışdılar, bu dəstəyi daim hiss etdiklərini söylədilər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva illərdir yataqxana həyatı keçirən məcburi köçkün ailələrinə baş çəkərkən bundan sonra da onlara diqqət və qayğı ilə yanaşılacağını, mənzil şəraiti ilə təmin olunacaqlarını bildirdi: "Mən bilirəm ki, siz yararsız binalarda çətin vəziyyətdə yaşayırsınız. İnanın mənə, tapşırığımla yeni yol xəritəsi hazırlanır. Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə bir il ərzində 6 min mənzil təhvil veriləcək. İnanın, mənim güc mənbəyim sizsiniz. Mən hər zaman sizin yanınızdayam. Bu, mənim borcumdur".

Birinci vitse-prezident yataqxananın yerləşdiyi ərazidə 131 şagirdin təhsil aldığı Zəngilan rayonunun 20 saylı tam orta məktəbində də oldu. Mehriban xanım Əliyeva həmin gün Qaradağ rayonunda məcburi köçkünlər üçün salınan "Qobu Park" yaşayış kompleksinə də gələrək qəsəbə sakinləri ilə görüşüb müraciətlərini dinlədi və onların problemlərinin həlli istiqamətində tapşırıqlarını verdi.

Məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri 103 yeni qəsəbə, şəhərcik salınmasıdır. Burada da ümumilikdə 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunub. Mehriban xanım Əliyeva qeyd etdi ki, şəhərcik təkcə evlərdən ibarət deyil, onu yaratmaq üçün infrastruktur - məktəblər, bağçalar tikilib, su, qaz, işıq xətləri çəkilib, asfalt yollar salınıb: "Amma yenə də hələ ki ağır vəziyyətdə yaşayan insanlarımız var və onların həyatının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik.

Ardı 5-ci səh.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alır:**

1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048; № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1551-VQD nömrəli və 9 aprel tarixli 1562-VQD nömrəli qanunları) 12-ci maddəsinin 1-ci hissəsinin "x" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda "ı" bəndi əlavə edilsin:

"ı) "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsini təmin etmək.".

2. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23) 59.7-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"59.7. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən bu Məcəlləyə və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*



# Qeyri-neft sənayesində məhsul istehsalı 15,7 faiz artıb

## Bu, ölkənin dayanıqlı inkişafının təmin edilməsində mühüm faktordur

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. İki əsrə yaxındır ölkəmiz neftin əsas istehsalçılarındandır. İstər Çar Rusiyası dövründə, istərsə də SSRİ dönəmində bu dövlətlərin əsas neft təchizatçısı Azərbaycan olub. Bir sözlə, iqtisadiyyatımızda neft sənayesi flaqman sayılıb.

Müstəqilliyi yenidən əldə etdiyimiz ilk dövrlərdə yeganə ümid yerimiz yenə də neftlə bağlı idi. "Əsrin müqaviləsi" bağlandıqdan sonra ölkəmiz neftin sayəsində düşdüyü dərin iqtisadi böhrandan çıxa bildi. Həmin müqavilədən əldə edilən gəlir ölkənin ümumi inkişafını təmin etməyə imkan verdi. Beləliklə, hərtərəfli iqtisadi inkişafa nail olmaq üçün islahatlara başlandı. Məqsəd qeyri-neft sektorunu inkişaf etdirməklə neft amilindən asılılığa son qoymaq idi.

Ardı 3-cü səh.

# Gələn ildən yeni aqrar sığorta mexanizminin tətbiqinə başlanılır

## Yeni mexanizm qabaqcıl dünya təcrübələri əsasında hazırlanıb

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə" fərman imzalayıb. Fərmanda yeni aqrar sığorta mexanizminin tətbiqi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, yeni aqrar sığorta mexanizmi Kənd Təsərrüfatı Nazirliyinin rəhbərlik etdiyi, Maliyyə, İqtisadiyyat, Ədliyyə nazirlikləri, Maliyyə Bazarlarına Nəzarət Palatası, Əmlak Məsələləri Dövlət Komitəsi nümayəndələrinin də daxil olduğu işçi qrup tərəfindən hazırlanıb. Hazırlıq prosesində dünyada mövcud olan aqrar sığorta modelləri araşdırılaraq mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin bu sahədə təcrübəsi öyrənilib. Azərbaycanın kənd təsərrüfatı mütəxəssislərinin görüş və səfərləri, əldə edilmiş razılıqlar, təcrübə mübadilələri bu sahədə mövcud sistemləri dərinliklə öyrənməyə imkan verib. Həmin modellərin üstün və zəif cəhətləri araşdırılaraq, Azərbaycan üçün dövlət-özəl tərəfdaşlığını əsas tutan model hazırlanıb.

Ardı 6-cı səh.

Kəndli inkişafdan razılıq edir




# Azərbaycanın nailiyyətlərindən qürur duyuruq

Qax rayonunun Əlibəyli kəndində yaşayıram. Milliyyətcə gürcüyəm. Amma doğulduğum, boya-başa çatdığım məkan Azərbaycandır. Azərbaycan mənim doğma vətənimdir. Həmişə bu vətənlə fəxr etmişəm və son nəfəsimədək bu, belə də olacaq.

Son dövrlər Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı göz önündədir. Baxmayaraq ki, fitnəkar erməni xəyanəti hər an duyulur. Şəhid veririk, lakin qurub-yaradırıq, varlığımızı dünyaya sübut edirik. Sevinirəm ki, belə bir güclü dövlətin vətəndaşıyam.

Ömrümün ahıl çağıdır. Uzun illər doğma kəndimdə müəllim işləmişəm. İndi pensiyaçıyam. Lakin ictimai həyatdan kənarda qala, biganə ola bilmirəm. Azərbaycanın sürətli inkişafını doğma kəndimizin timsalında da aydın görmək qəlbimi qürurla doldurur. Belə ki, son 15 ildə kəndimizin siması başdan-başa dəyişib. Burada yeni xəstəxana binası tikilib. Müasir tibbi avadanlıqla təchiz olunan xəstəxanaya təcili yardım maşını da verilib. Kəndin elektrik xətti başdan-başa kabel sisteminə keçib, evlərdə çoxdandır həsrətini çəkdiyimiz mavi qaz şölələnir.

Ardı 6-cı səh.

# Aqrar sığorta haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.1.1. aqrar sığorta sistemi - kənd təsərrüfatı və akvakultura məhsullarının istehsalçısının (bundan sonra kənd təsərrüfatı məhsullarının istehsalçısı) bu Qanunun 4.1-ci maddəsi ilə müəyyən edilmiş əmlak mənafelərinin könüllü sığorta əsasında müdafiəsi sahəsində riskin ötürülməsinə və bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi;

1.1.2. aqrar sığorta orqanı - aqrar sığorta sistemi üzrə bu Qanunun 8.2-ci maddəsinə uyğun olaraq fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxsi;

1.1.3. idarəedici qurum - aqrar sığorta orqanının adından aqrar sığorta sisteminin idarəedilməsini həyata keçirən müştərək sığortaçı;

1.1.4. vasitəçi aqrar sığortaçı - Azərbaycan Respublikası ərazisində "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun qaydada sığorta fəaliyyəti göstərən və idarəedici qurumun səhmdarı olan yerli hüquqi şəxs;

1.1.5. müstəqil ekspert - sığorta risklərini və (və ya) zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran fiziki şəxs;

1.1.6. aqrar sığortalı - aqrar sığorta sistemi üzrə əmlak mənafeləri sığortalanan kənd təsərrüfatı məhsullarının istehsalçısı olan fiziki və ya hüquqi şəxs;

1.1.7. aqrar sığorta məhsulu - kənd təsərrüfatı məhsullarının istehsalçılarına onların əmlak mənafelərinin müdafiəsi üçün vasitəçi aqrar sığortaçı tərəfindən təklif edilən sığorta xidməti;

1.1.8. akvakultura məhsulu - akvakultura yolu ilə balıq və digər su bioresurslarından əldə olunmuş, emal edilmiş və istehlaka yönəldilən akvakultura obyektləri.

1.2. Bu Qanunda nəzərdə tutulmayan digər anlayışlar Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Aqrar sığorta haqqında qanunvericilik**

2.1. Aqrar sığorta haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Ələt iqtisadi zonasında aqrar sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Aqrar sığorta sahəsində dövlətin vəzifələri**

3.0. Aqrar sığortanın həyata keçirilməsində dövlətin vəzifələri aşağıdakılardır:

3.0.1. aqrar sığorta predmetlərini və aqrar sığorta risklərini müəyyənləşdirmək;

3.0.2. aqrar sığorta sahəsində dövlət siyasətinin istiqamətlərini müəyyən etmək və normativ hüquqi aktlar qəbul etmək;

3.0.3. aqrar sığorta üzrə fəaliyyətin genişləndirilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçirmək;

3.0.4. aqrar sığortanın tətbiqinin genişləndirilməsi üçün maarifləndirmə və məlumatlandırma işini təşkil etmək;

3.0.5. aqrar sığorta sisteminin tətbiqinə nəzarət etmək və fasiləsizliyinin təmin edilməsinə dəstək göstərmək;

3.0.6. aqrar sığorta sisteminin inkişafı və istifadəsinin təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək;

3.0.7. aqrar sığorta sahəsində beynəlxalq əməkdaşlığı dəstəkləmək.

**Maddə 4. Aqrar sığortanın predmeti**

4.1. Bu Qanunun tələblərinə uyğun olaraq aşağıdakılar aqrar sığortanın predmeti sayılır:

4.1.1. kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları (çoxillik əkmələr və onların məhsulu daxil olmaqla);

4.1.2. kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar;

4.1.3. akvakultura məhsulu.

4.2. Bu Qanunun 4.1-ci maddəsində sadalanan aqrar sığorta predmetinin tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

4.3. İstehsalı, emalı, idxalı və dövriyyəsi qadağan edilən kənd təsərrüfatı məhsulları, habelə karantin və məhdudiyyət tədbirləri tətbiq edilən ərazidəki və ya xəstə kənd təsərrüfatı heyvanları və akvakultura məhsulları aqrar sığortanın predmeti ola bilməz. Bu tələbə riayət olunması qaydası sığorta qaydaları ilə müəyyən edilir.

**Maddə 5. Aqrar sığorta üzrə təminat verilən risklər**

5.1. Kənd təsərrüfatı məhsullarının istehsalçıları aqrar sığorta predmetləri üzrə aşağıdakı risklərin bir və ya bir neçəsindən sığorta qaydalarına əsasən sığortalanır:

5.1.1. təbii fəlakətlər;

5.1.2. yanğınlar;

5.1.3. bitki xəstəlikləri və zərərvericilər;

5.1.4. yoluxucu xəstəliklər və zəhərlənmələr;

5.1.5. vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu;

5.1.6. üçüncü şəxslərin hərəkətləri.

5.2. Aqrar sığortalının sığorta hadisəsinin baş verməsinə yönəldilmiş qəsdən etdiyi qanunazidd hərəkətləri aqrar sığortanın riski ola bilməz.

5.3. Bu Qanunun 5.1-ci maddəsində sadalanan aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 6. Aqrar sığortanın tənzimlənməsi**

6.1. Aqrar sığortanın tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən sığorta qaydalarına əsasən həyata keçirilir.

6.2. Sığorta qaydaları ilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 916.1-ci maddəsində nəzərdə tutulanlardan əlavə aşağıdakılar müəyyən olunur:

6.2.1. sığorta haqqının hesablanması, ödənilməsi qaydası və forması;

6.2.2. sığorta haqqı üzrə güzəştlər və əlavələr;

6.2.3. qismən sığorta, azadolma və gözləmə müddəti;

6.2.4. sığorta müqaviləsinin forması;

6.2.5. sığorta müqaviləsinin bağlanılması müddətləri;

6.2.6. bu Qanunun digər maddələrində müəyyən edilən hallar.

6.3. Sığorta qaydalarına sonradan edilmiş dəyişikliklər qüvvədə olan sığorta müqavilələrinə şamil edilmir.

6.4. Aqrar sığorta məhsulunun şərtləri sığorta qaydalarına uyğun olaraq hazırlanır və hər bir aqrar sığorta məhsulunun şərtləri özündə sığortalıya göstərilən xidmətlərin növləri və tarifləri, sığorta müqavilələri ilə bağlı məsələləri ehtiva edir.

6.5. Aqrar sığorta məhsulunun aqrar sığortalıya tətbiqi sığorta qaydalarına əməl etməklə onunla bağlanan aqrar sığorta müqaviləsi əsasında həyata keçirilir.

6.6. Aqrar sığorta müqaviləsi sığortalı və idarəedici qurum tərəfindən yazılı formada bağlanır. Aqrar sığorta müqaviləsi elektron sənəd formasında da bağlana bilər. Sığorta müqaviləsi üzrə aqrar sığortalı tərəfindən sığorta haqqının ödənilməsi aqrar sığortalının müvafiq sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılaşdığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir. Aqrar sığorta müqaviləsi aqrar sığorta informasiya sistemində qeydə alınır.

6.7. Aqrar sığorta müqaviləsi sığorta qaydaları və aqrar sığorta məhsulunun şərtlərində müəyyən edilmiş müddətdən artıq müddətə bağlanıla bilməz.

6.8. Aqrar sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta predmeti olan əmlaka mülkiyyət, istifadə və icarə hüququ başqa şəxsə keçərsə, aqrar sığortalının hüquq və vəzifələri də həmin şəxsə keçir. Bununla əlaqədar müqaviləyə müvafiq dəyişikliklər edilir və bu barədə məlumatlar aqrar sığorta informasiya sisteminə daxil edilir.

**Maddə 7. Aqrar sığorta haqqı**

7.1. Aqrar sığorta haqqı sığorta qaydaları əsasında idarəedici qurum tərəfindən hesablanır və aşağıdakı hissələrdən ibarətdir:

7.1.1. aqrar sığortalı tərəfindən ödənilməli olan hissə;

7.1.2. dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissə.

7.2. Aqrar sığorta haqqının hər bir sığorta məhsulu üzrə dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

7.3. Aqrar sığortalı tərəfindən ödənilməli olan hissə birbaşa aqrar sığorta orqanının bank hesabına ödənilir.

### 2-ci fəsil
### Aqrar sığorta sisteminin subyektləri

**Maddə 8. Aqrar sığorta orqanı**

8.1. Aqrar sığorta orqanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılır.

8.2. Aqrar sığorta orqanı nizamnaməsi ilə müəyyən edilən qaydada aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını təmin etmək məqsədi ilə fəaliyyət göstərir, habelə idarəedici qurumun fəaliyyətinə nəzarəti həyata keçirir, idarəedici qurum ləğv edildikdə yenisinin formalaşdırılmasını təmin edir.

8.3. Aqrar sığorta orqanı bu Qanun və nizamnaməsi ilə müəyyən edilən qaydada aqrar sığorta sisteminin idarə edilməsini və aqrar sığorta informasiya sisteminin aparılmasını idarəedici qurum vasitəsilə həyata keçirir. İdarəedici qurumun hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə, həmçinin bu Qanunun 10.7-ci maddəsində nəzərdə tutulmuş məsələlərə baxılması üçün aqrar sığorta orqanı daxilində "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq fəaliyyət göstərən Apelyasiya Şurası yaradılır.

8.4. Aqrar sığorta orqanı öz mənfəətini aşağıdakı istiqamətlərə yönləndirir:

8.4.1. uzunmüddətli sığorta ehtiyatlarının formalaşdırılmasına;

8.4.2. nizamnamə kapitalının artırılmasına;

8.4.3. sığortalı tərəfindən ödənilməli olan növbəti sığorta haqlarının bir hissəsinin ödənilməsinə;

8.4.4. dövlət büdcəsi vəsaiti hesabına ödənilməli olan növbəti sığorta haqlarının bir hissəsinin ödənilməsinə.

8.5. Aqrar sığorta orqanının aktivləri və təkrarsığorta təminatı onun öhdəliklərinin yerinə yetirilməsi üçün kifayət etmədikdə əlavə maliyyə vəsaitinin cəlb edilməsi üçün aqrar sığorta orqanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir.

**Maddə 9. İdarəedici qurum**

9.1. İdarəedici qurum Azərbaycan Respublikası ərazisində qeyri-həyat sığortası sahəsi üzrə fəaliyyətə lisenziyaya malik olan hüquqi şəxslər tərəfindən açıq səhmdar cəmiyyəti təşkilati hüquqi formasında bərabər səhmlərlə yaradılır və fəaliyyət göstərir.

9.2. Səhmdarlardan heç biri öz payını satmadığı halda idarəedici qurum əlavə səhm buraxılışını həyata keçirir.

9.3. İdarəedici qurum öz fəaliyyətini bu Qanuna, nizamnaməsinə və aqrar sığorta orqanı ilə imzalanmış müqaviləyə uyğun həyata keçirir.

9.4. İdarəedici qurum tərəfindən qiymətli kağızların (səhmlər istisna olmaqla) buraxılmasına, dövlət büdcəsindən və ya digər mənbələrdən borc vəsaitinin cəlb edilməsinə yol verilmir.

9.5. İdarəedici qurumun əməliyyat xərcləri aqrar sığorta orqanı ilə aralarında bağlanmış müqavilə əsasında müəyyən edilir.

9.6. İdarəedici qurum aqrar sığorta orqanı adından qanuna uyğun qaydada bağlanmış müqavilələr üzrə öhdəlik daşımır.

9.7. İdarəedici qurum fəaliyyətini dayandırdıqda, ləğv olunduqda və ya məhkəmə qərarı ilə müflis elan edildikdə onun bütün sənədləri aqrar sığorta orqanına təhvil verilir.

9.8. İdarəedici qurum aqrar sığorta orqanı tərəfindən verilmiş əmlakdan və daxil olan vəsaitlərdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edə bilər:

9.8.1. sığorta ödənişlərinin həyata keçirilməsi;

9.8.2. təkrarsığorta əməliyyatlarının aparılması;

9.8.3. vasitəçi aqrar sığortaçılara komisyon muzdlarının ödənilməsi;

9.8.4. inzibati xərclərin ödənilməsi;

9.8.5. investisiya əməliyyatlarının aparılması;

9.8.6. aqrar sığorta informasiya sisteminin formalaşdırılması və ona texniki xidmətin göstərilməsi.

9.9. İdarəedici qurumun fəaliyyətinin təmin edilməsi üçün aqrar sığorta orqanı tərəfindən ödənilən vəsait həmin dövr üzrə ödənilən sığorta haqlarının 15 faizindən çox olmamalıdır.

**Maddə 10. Müstəqil ekspertlər**

10.1. Aqrar sığorta fəaliyyəti üzrə xidmətlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçərək müvafiq sertifikatı almış və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan reyestrə daxil edilmiş müstəqil ekspertlər cəlb edilir. Həmin imtahanın keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

10.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) kənd təsərrüfatı sığortasında riskləri və (və ya) zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran xarici fiziki şəxslərin bu fəaliyyətə cəlb edilməsi üçün yararlılıq tələblərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müəyyən edir. Tələblərə uyğunluğu müəyyən edilən şəxslər bu fəaliyyətə aqrar sığorta orqanının qərarı ilə cəlb edilir və bu zaman bu Qanunun 10.1-ci maddəsinin tələbləri tətbiq edilmir.

10.3. Müstəqil ekspertlərin fəaliyyət istiqamətləri, hüquq və vəzifələri sığorta qaydalarında və idarəedici qurumla aralarında bağlanan müqavilədə təsbit olunur.

10.4. Müstəqil ekspertin müqavilə şərtlərini pozduğu aşkar edildikdə bu barədə aqrar sığorta orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilir.

10.5. Sığortalanan riski qiymətləndirən müstəqil ekspert həmin risk üzrə sığorta hadisələrinin araşdırılmasında və zərərin qiymətləndirilməsində iştirak edə bilməz.

10.6. Müstəqil ekspertlər tərəfindən göstərilən xidmətlərə görə haqq aqrar sığorta orqanının müəyyən etdiyi qaydada və onun vəsaiti hesabına ödənilir. Sığorta ödənişinin məbləği barədə sığorta müqaviləsinin tərəfləri arasında mübahisə yarandığı hallarda yeni müstəqil ekspert təyin edilə bilər.

10.7. İlkin və yeni müstəqil ekspert tərəfindən verilmiş rəylər bir-birindən fərqli olduqda aqrar sığorta orqanının Apelyasiya Şurasında baxılır və müvafiq qərar qəbul edilir. Apelyasiya Şurasının qərarı yeni müstəqil ekspertin rəyini təsdiq edərsə, onun xidmət haqqı ilkin ekspertin vəsaiti hesabına, ilkin müstəqil ekspertin rəyini təsdiq etdikdə isə sığortalının vəsaiti hesabına ödənilir.

**Maddə 11. Vasitəçi aqrar sığortaçılar**

11.1. Vasitəçi aqrar sığortaçılar aqrar sığorta ilə bağlı münasibətlərdə aqrar sığorta orqanı və aqrar sığortalı arasında aqrar sığortanın tətbiqi üzrə sığorta vasitəçiliyi fəaliyyətini həyata keçirir.

11.2. Vasitəçi aqrar sığortaçılar idarəetmə qurumu ilə sığortalı arasında aqrar sığorta müqaviləsi bağlanmasına vasitəçilik etməklə yanaşı sığortalılara haqqı ödənilməklə aqrar sığorta ilə bağlı hüquqi, texniki və təşkilati xidmətlər göstərirlər.

11.3. Sığorta vasitəçiliyi fəaliyyəti üçün aqrar sığorta orqanı bu Qanunla müəyyən olunmuş qaydada vasitəçi aqrar sığortaçılar ilə müqavilə bağlayır.

11.4. Vasitəçi aqrar sığortaçılar sığorta vasitəçiliyi fəaliyyətinə görə sığorta qaydaları ilə müəyyən edilmiş məbləğdə komisyon muzd alırlar.

11.5. Aqrar sığortalının sığorta haqqını hissə-hissə ödəməsi hallarında aqrar sığorta orqanı ilə vasitəçi aqrar sığortaçı arasında bağlanan müqavilədə sonuncu tərəfindən təminat alətlərinin tətbiq edilməsi nəzərdə tutula bilər.

**Maddə 12. Aqrar sığortalı**

12.1. Aqrar sığortalı aqrar sığorta sistemi üzrə sığortalanmaq üçün vasitəçi aqrar sığortaçılar vasitəsilə aqrar sığorta informasiya sistemində qeydiyyatdan keçir və əmlak mənafelərinin bu Qanunla müəyyən edilən qaydada sığortalanması üçün idarəedici qurum ilə müqavilə bağlayır.

12.2. Aqrar sığortalının hüquq və vəzifələri aqrar sığorta müqaviləsində müəyyən olunur.

### 3-cü fəsil
### Aqrar sığortanın həyata keçirilməsi

**Maddə 13. Aqrar sığorta informasiya sistemi**

13.1. Aqrar sığorta ilə bağlı fəaliyyət üzrə subyektlərin hərəkətlərinin elektron qaydada aparılması, aqrar sığorta məhsulunun elektron təşkili, aqrar sığortalıların qeydiyyatının və göstərilən xidmətlərə nəzarətin operativ qaydada həyata keçirilməsi məqsədilə aqrar sığorta orqanı tərəfindən aqrar sığorta informasiya sistemi yaradılır.

13.2. Aqrar sığorta informasiya sistemi dövlət informasiya sistemi sayılır. Sistemin əsasnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiqlənir.

13.3. Aqrar sığorta informasiya sisteminə inteqrasiya edilməli olan informasiya sistemlərinin və onlardan əldə olunan məlumatların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

13.4. Aqrar sığorta orqanı aşağıdakı məlumat və sənədləri elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə edir:

13.4.1. hava və iqlim şəraiti barədə;

13.4.2. su kadastrı məlumatları, suvarılan torpaq sahələri, meliorasiya və irriqasiya (suvarma) şəbəkələri, hidrotexniki qurğular, nasos stansiyaları, subartezian quyuları, şoranlaşma və şorakətləşmə vəziyyəti;

13.4.3. kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dövlət torpaq kadastrının məlumatları (torpaq sahələrinin hüquqi statusu, torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququ, torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəriciləri, torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi, torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar qanunla müəyyən olunmuş digər məlumatlar), ünvanı, kənd təsərrüfatı məqsədləri üçün istifadə edilən digər daşınmaz əmlak (tikili və qurğular), həmin daşınmaz əmlak üzərində qeydiyyata alınmış hüquqlar, hüquqların yüklülüyü (məhdudlaşdırılması), hüquq sahibləri barədə məlumatlar.

13.5. Bu Qanunun 13.4-cü maddəsində nəzərdə tutulmuş məlumatların (sənədlərin) əldə edilməsinə görə:

13.5.1. dövlət rüsumundan azadolmalar "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir;

13.5.2. bütün digər hallarda heç bir ödəniş tələb olunmur.

13.6. Sığorta müqavilələri üzrə məlumatlar mütəmadi olaraq idarəedici qurum və (və ya) sistemin digər istifadəçiləri (vasitəçi aqrar sığortaçılar, müstəqil ekspertlər və aqrar sığortalılar) tərəfindən aqrar sığorta informasiya sisteminə daxil edilir.

**Maddə 14. Riskin qiymətləndirilməsi**

14.1. Sığorta qaydalarında və aqrar sığorta məhsulunun şərtlərində nəzərdə tutulan hallarda, sığorta müqaviləsi bağlanmamışdan əvvəl müstəqil ekspert sığorta predmetinə baxış keçirir və onun məruz qala biləcəyi riskləri qiymətləndirir.

14.2. Müstəqil ekspert sığorta predmeti ilə bağlı olan risklər üzrə sığorta qaydaları ilə müəyyən edilən məlumatları aqrar sığorta informasiya sisteminə daxil edir.

**Maddə 15. Aqrar sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsi**

15.1. Aqrar sığorta haqqının bir hissəsinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi aşağıdakı şərtlər yerinə yetirildikdə həyata keçirilir:

15.1.1. sığorta müqaviləsi qanunvericiliyə və sığorta qaydalarına uyğun bağlandıqda;

15.1.2. sığorta haqqının aqrar sığortalı tərəfindən ödənilən hissəsi tam və ya sığorta müqaviləsində nəzərdə tutulmuş hissə-hissə ödəniş formasının ilk hissəsi ödənildikdə.

15.2. Dövlət büdcəsinin vəsaiti hesabına aqrar sığorta haqqının bir hissəsinin maliyyələşdirilməsi hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanunlara uyğun olaraq həyata keçirilir.

15.3. Aqrar sığorta orqanı hər ayın sonunda sığorta müqavilələri üzrə sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsinin ödənilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş sənədləri müraciətə əlavə edir.

15.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsinin müraciətin daxil olduğu tarixdən sonrakı 10 iş günü müddətində aqrar sığorta orqanının müvafiq bank hesabına köçürülməsini təmin edir.

15.5. Aqrar sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilmiş hissəsi aqrar sığorta orqanının bank hesabında saxlanılır və yeni sığorta müqavilələri üzrə bu Qanunun 15.1-ci maddəsinə uyğun qaydada istifadə edilir.

15.6. Aqrar sığortalının aqrar sığorta haqqını tam və ya qismən ödəməsindən asılı olmayaraq, dövlət tərəfindən aqrar sığorta haqqının bu Qanuna uyğun qaydada müəyyən edilən hissəsi tam həcmdə ödənilir.

**Maddə 16. Sığorta hadisəsinin araşdırılması**

16.1. Aqrar sığortalı sığorta hadisəsinin baş verməsi ilə bağlı idarəedici quruma müraciət edir və idarəedici qurum bu Qanunun 10-cu maddəsinə əsasən müəyyən olunmuş müstəqil ekspert tərəfindən sığorta hadisəsinin araşdırılmasını və zərərin qiymətləndirilməsini təmin edir.

16.2. Sığorta hadisəsi araşdırılarkən aqrar sığortalıdan yalnız qanunda və sığorta qaydalarında nəzərdə tutulmuş sənədlər tələb edilir.

16.3. Müstəqil ekspertin təyin edilməsi, sığorta hadisəsi nəticəsində zərər dəymiş sığorta predmetinə baxışın keçirilməsi müddətləri sığorta qaydalarında və aqrar sığorta məhsulunun şərtlərində, habelə sığorta müqaviləsində müəyyən edilir.

**Maddə 17. Aqrar sığorta ödənişi haqqında qərar**

17.1. Sığorta qaydalarına uyğun olaraq, sığorta ödənişinin verilməsi üçün tələb olunan bütün sənədlər təqdim edildikdən sonra aqrar sığorta orqanı 7 iş günü ərzində sığorta ödənişinin tam və ya qismən verilməsi və ya ödənişin verilməsindən imtina barədə qərar qəbul edir və bu barədə aqrar sığortalıya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada rəsmi məlumat verir.

17.2. Aqrar sığorta orqanı sığorta ödənişinin verilməsindən tam və ya qismən imtina barədə qərarında qanunvericilik, sığorta müqaviləsi və ya sığorta qaydalarının müddəalarına istinad etməklə imtina üçün əsaslarını aydın göstərməlidir.

17.3. Sığorta ödənişinin verilməsi barədə qərar bu Qanun və sığorta qaydalarında müəyyən edilmiş müddətdə icra edilir.

17.4. Sığortalı ödənişin tam və ya qismən verilməsindən imtina barədə qərardan inzibati qaydada və məhkəmə qaydasında şikayət verə bilər.

**Maddə 18. Təkrarsığorta**

18.1. Aqrar sığorta üzrə sığortalanmış risklər aqrar sığorta orqanının şəxsi tutumundan çox olan hissədə, həmçinin aqrar sığorta orqanı üçün əhəmiyyətli hesab edilən hallarda xarici və yerli təkrarsığortaçılarda təkrarsığorta etdirilir.

18.2. Təkrarsığorta əməliyyatları aqrar sığorta orqanı tərəfindən müəyyən olunmuş təkrarsığorta siyasətinə uyğun olaraq həyata keçirilir.

### 4-cü fəsil
### Yekun müddəalar

**Maddə 19. Aqrar sığorta haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 20. Keçid müddəa**

Bu Qanunun 13.3-cü maddəsinə uyğun olaraq müvafiq informasiya sistemləri aqrar sığorta informasiya sisteminə inteqrasiya olunanadək müvafiq məlumatlar və sənədlər (bu Qanunun 13.5-ci maddəsi nəzərə alınmaqla) aidiyyəti informasiya sahibləri tərəfindən aqrar sığorta orqanının sorğusu əsasında təqdim edilir.

**Maddə 21. Yekun müddəalar**

21.1. Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

21.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının 2002-ci il 18 iyun tarixli 344-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 10, maddə 582; 2005, N 8, maddə 692; 2008, N 11, maddə 960; 2013, N 11, maddə 1292; 2016, N 3, maddə 417; 2019, N 1, maddə 34) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi (bundan sonra - Fond) yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.3. həmin Qanunun 4.2-ci maddəsinə uyğun olaraq, aqrar sığorta predmetinin tərkibini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.4. həmin Qanunun 10.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, müstəqil ekspertlərin imtahanının keçirilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.5. həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq, sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.6. Fondun nizamnaməsini Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 1.10.1.5-ci (kənd təsərrüfatı sahəsində islahatlar aparılması ilə bağlı xərclər) yarımbəndində nəzərdə tutulmuş vəsait hesabına Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını, habelə 2020-ci və 2021-ci illərin dövlət büdcələrinin layihələrində Fondun nizamnamə kapitalının artırılması məqsədilə müvafiq olaraq 5 000 000 (beş milyon) və 3 000 000 (üç milyon) manat vəsaitin nəzərdə tutulmasını, həmin vəsaitlər hesabına Fondun nizamnamə kapitalının artırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. dörd ay müddətində:

2.3.1. həmin Qanunun 5.3-cü maddəsinə uyğun olaraq, aqrar sığorta üzrə təminat verilən risklərin tərkibini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.2. həmin Qanunun 6.1-ci maddəsinə uyğun olaraq, sığorta qaydalarını Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.3. həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, aqrar sığorta haqqının hər bir sığorta məhsulu üzrə dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsini Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.4. həmin Qanunun 13.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, "Aqrar sığorta" informasiya sisteminin əsasnaməsini Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.5. həmin Qanunun 13.3-cü maddəsinə uyğun olaraq, "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların siyahısını Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, aqrar sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsini hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun və bununla bağlı təkliflərini hər il sentyabr ayının 25-dək "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.16-cı maddəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Müəyyən edilsin ki:

3.1. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun:

3.1.1. 4.2-ci, 5.3-cü, 6.1-ci, 7.2-ci, 8.1-ci, 8.5-ci maddələrində, 10.1-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 10.2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 10.4-cü maddəsində, 13.2-ci maddəsinin ikinci cümləsində, 13.3-cü, 15.3-cü (hər iki halda) və 15.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.1.2. 8.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

3.1.3. 4.2-ci, 5.3-cü, 6.1-ci, 7.2-ci maddələrində, 10.1-ci maddəsinin ikinci cümləsində, 13.2-ci maddəsinin ikinci cümləsində, 13.3-cü və 15.3-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.1.4. 8.5-ci, 15.3-cü (birinci halda) və 15.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

3.1.5. 10.1-ci maddəsinin birinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

3.1.6. 10.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 10.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və 10.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;

3.1.7. 10.2-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

3.2. Fondun ilkin nizamnamə kapitalı 1 000 000 (bir milyon) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.3. Fondda ictimai əsaslarla fəaliyyət göstərən və 5 üzvdən - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının (1 nəfər) və fermerlər assosiasiyasının (1 nəfər) nümayəndələrindən ibarət Himayəçilik Şurası yaradılır. Fondun Himayəçilik Şurasının sədri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsidir;

3.4. Fondun fəaliyyətinin idarə edilməsi qaydası ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin 115.6-cı maddəsinə uyğun olaraq onun nizamnaməsi ilə tənzimlənir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.1.2. Fondun yenidən təşkili barədə qərarın qəbul edilməsi və Fondun ləğvi məsələsinin həlli;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Fondun nizamnaməsinin təsdiqi;

4.3. Fondun Himayəçilik Şurasına:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

5.1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə:

5.1.1. bu Fərmanın 2.1.6-cı yarımbəndində qeyd olunan məsələ ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

5.1.2. bu Fərmanın 2.3.2-ci, 2.3.4-cü və 2.3.5-ci yarımbəndlərində qeyd olunan məsələlərlə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

5.2. bu Fərmanın 2.3.3-cü yarımbəndində qeyd olunan məsələ ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

5.3. bu Fərmanın 2.4-cü bəndində qeyd olunan məsələ ilə bağlı təkliflərini "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq aidiyyəti üzrə təqdim etsin;

5.4. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

6.1. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan tələbləri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

6.2. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

7.1. qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları həmin Qanunun qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

7.2. qanunların və normativ xarakterli aktların layihələri hazırlanarkən həmin Qanunun qüvvəyəminmə tarixi nəzərə alınsın.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2019-cu il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1551-VQD nömrəli, 9 aprel tarixli 1559-VQD və 1562-VQD nömrəli, 3 may tarixli 1575-VQD və 1584-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 22-1.1-ci maddədə "50 faizi" sözləri "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hissəsi" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 22-1.3-cü maddə əlavə edilsin:

"22-1.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 22-1.1-ci maddəsində nəzərdə tutulan mənbələr hesabına gəlirlərinin faktiki daxilolmalarının məbləği büdcə sistemi haqqında qanunvericilikdə nəzərdə tutulan qaydada proqnozlaşdırılan gəlirlərinin məbləğindən az olduqda, bu fərq hər il üçün Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanunu ilə təsdiq edilən dövlət büdcəsinin gəlirləri üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan artıq daxil olan vəsait (neft-qaz sahəsində fəaliyyət göstərən vergiödəyicilər (podratçılar), "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun mədaxil mənbələri üzrə daxilolmalar, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş qaydada şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə daxil olan vəsait istisna olmaqla) hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.".

1.3. 102.1.14.15-ci maddəyə "hərbi qulluqçulara" sözlərindən sonra ", hakimlərə" sözü əlavə edilsin;

1.4. 102.1.17-ci maddədən "və hakimlərə" sözləri çıxarılsın.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

2.1. Bu Qanunun 1.1-ci və 1.2-ci maddələri 2019-cu il yanvarın 1-dən tətbiq edilir.

2.2. Bu Qanunun 1.3-cü və 1.4-cü maddələri 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1 (I kitab), maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389; № 4, maddələr 579, 581, 587, 595; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1534-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli, 13 iyun tarixli 1609-VQD nömrəli və 27 iyun tarixli 1627-VQD nömrəli qanunları) 471-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"**Maddə 471. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) haqların ödənilməməsi**

Banklar və xarici bankların yerli filialları, bank olmayan kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, poçt rabitəsinin milli operatoru, kredit büroları, idman mərc oyunlarının operatorları, qiymətli kağızlar bazarında fəaliyyəti lisenziyalaşdırılan şəxslər və mərkəzi depozitar, lotereya təşkilatçısı, investisiya fondları və onların idarəçiləri tərəfindən qanuna uyğun olaraq müəyyən edilən məbləğdə və qaydada haqların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ödənilməməsinə görə -

vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1648-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1648-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22-1.1-ci maddəsinə uyğun olaraq əldə olunan vəsaitin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Vergilər Nazirliyinin hesablarına köçürülən hissəsi aşağıdakı kimi müəyyən edilsin:

2.1. 2019-2022-ci illər üçün - 100 faizi;

2.2. 2023-cü il və növbəti illər üçün - 50 faizi.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 152, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.15-4-cü maddəsində" sözləri "22-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 22-1.3-cü (hər üç halda), 23.1.15-4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 1.1-2-ci bənddə "(ikinci halda)" sözləri "(üçüncü halda)" sözləri ilə əvəz edilsin;

3.3. 1.1-8-ci bəndə "həmin Məcəllənin" sözlərindən sonra "22-1.3-cü (ikinci halda)," sözləri əlavə edilsin;

3.4. aşağıdakı məzmunda 1.1-9-cu bənd əlavə edilsin:

"1.1-9. həmin Məcəllənin 22-1.3-cü maddəsində (birinci və üçüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur.".

4. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 762, №11, maddə 2023, № 12 (I kitab), maddə 2343; 2018, № 6, maddə 1235, № 9, maddə 1842, № 12 (I kitab), maddələr 2555, 2603; 2019, № 1, maddə 95, № 3, maddə 435, № 4, maddə 645; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 753 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.2-ci bənddə "50 faizi" sözləri "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hissəsi" sözləri ilə əvəz edilsin;

4.2. 2.2.2-ci yarımbənddə "43 faiz" sözləri "bu Fərmanın 2.2.1-ci və 2.2.1-1-ci yarımbəndləri nəzərə alınmaqla, qalan hissəsi" sözləri ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 2.1-ci bəndinə "Xüsusi vəsait" sözlərindən sonra "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22-1.3-cü maddəsinə əsasən, habelə" sözləri əlavə edilsin;

4.4. həmin Qaydaya Əlavənin "Qanunda nəzərdə tutulmuş mənbələr hesabına formalaşan və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xüsusi xəzinə hesabına köçürülən vəsait barədə məlumat" cədvəlinə aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 2-1. | Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22-1.3-cü maddəsinə əsasən köçürülən vəsait | | | | |

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1636-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1636-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 743 nömrəli və 25 iyun tarixli 755 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bənddə "463, 471" rəqəmləri "463-cü maddələrində, 471-ci maddəsinin adında və mətnində" sözləri ilə əvəz edilsin;

3.2. 4.1-1-ci bənddən "471," rəqəmləri çıxarılsın;

3.3. 4.1-1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.1-2-ci bənd əlavə edilsin:

"4.1-2. həmin Məcəllənin 471-ci maddəsinin adında və mətnində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# Qeyri-neft sənayesində məhsul istehsalı 15,7 faiz artıb

*Əvvəli 1-ci səh.*

Aparılan islahatlar sayəsində, xüsusilə qeyri-neft sektorunun inkişafına nail olmaq üçün dövlət tərəfindən iri məbləğdə kapital qoyuluşu həyata keçirildi. Milyardlarla ölçülən bu məbləğ qeyri-neft sektorunun inkişafında və infrastrukturun genişlənməsində böyük dönüş yaratdı. Bu yolda ölkənin ümumi inkişafının təməli qoyuldu.

Dünyada inkişaf etmiş ölkələrin əsas parametrlərindən biri sənayenin inkişafıdır. Yüksək texnika və texnologiyalardan istifadə edərək bol məhsul istehsal edən dövlətlər inkişaf etmiş ölkə sayılır. Ölkəmiz də buna nail olmaq üçün sənayenin inkişafına xüsusi diqqət yetirir. Bu sahədə əsas yeri texnoparklar və sənaye məhəllələri tutur. Burada müasir texnologiyalardan istifadə edilir, istehsal olunan məhsul keyfiyyətinə görə dünya standartlarına cavab verdiyindən xarici bazara da çıxarılır.

Sənayenin inkişafında iki hədəf əsas götürülüb. Birincisi, sənayeni inkişaf etdirməklə ölkənin daxili tələbatını ödəmək və bu yolla idxalı azaltmaqla valyuta axınının qarşısını almaq. Digəri isə dünya bazarına keyfiyyətli məhsul çıxarmaqla daha çox valyuta əldə edərək ölkənin maliyyə dayanıqlığını təmin etməkdir.

Məlumdur ki, neftin qiyməti dünya bazarında sabit olmur, kəskin bahalaşma ilə yanaşı, qısa müddətdə kəskin ucuzlaşma da baş verir. Belə hal ölkənin maliyyə dayanıqlığına mənfi təsir göstərir. Sənayenin inkişafı və dünya bazarına sabit şəkildə məhsul ixracı isə ölkəni belə risklərdən qoruyur.



Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması ölkədə sənaye sahələrinin və iqtisadiyyatın tarazlı inkişafının təmin edilməsinə, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi baxımından əhəmiyyətlidir. Bu istiqamətdə beynəlxalq təcrübə öyrənilərək müvafiq normativ hüquqi sənədlər hazırlanmışdır.

Ölkədə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, o cümlədən Prezidentin 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Bununla bağlı xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Həmçinin BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanmış, müəyyən tədbirlər həyata keçirilmişdir. Səmərəli idarəetməni həyata keçirmək məqsədilə Prezidentin 24 aprel 2013-cü il tarixli fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir. Fərmanla müəyyənləşdirilmişdir ki, sənaye parkı - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir.

Sənaye parkının yaradılmasında əsas hədəf innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, habelə ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, eyni zamanda əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun təmin edilməsinə nail olmaqdır.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında müxtəlif stimullaşdırıcı tədbirlər tətbiq olunur. Vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlərə uyğun olaraq sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Dövlətin verdiyi dəstək sayəsində aqropark və sənaye məhəllələrinin yaradılması, eləcə də çoxlu sənaye müəssisələrinin tikilərək fəaliyyətə başlaması öz müsbət nəticəsini göstərir. Belə ki, vaxtında görülən tədbirlər sayəsində qeyri-neft sənayesində cari ilin 6 ayında 15,7 faiz artım qeydə alınıb. Ümumilikdə isə ölkənin neftdən asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar nəticəsində vergi daxilolmalarında bu sektorun payı 70,1 faizə çatıb. Belə hal ölkənin dayanıqlı inkişafının təmin edilməsində, həmçinin neftdən asılılığın aradan qaldırılmasında əhəmiyyətli rol oynayır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakıda “Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür” adlı konfrans keçirilib





Avqustun 22-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi münasibətilə “Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür” adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən komitənin sədri Mübariz Qurbanlı Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyətindən danışıb.

Sonra “REAL” televiziyasının hazırladığı sənədli film nümayiş olunub.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Allahşükür Paşazadəni nüfuzlu ictimai xadim kimi səciyyələndirib. Əli Həsənov deyib ki, A.Paşazadə Azərbaycanın mənəvi həyatında özünəməxsus nümunələr yaradıb. Azərbaycan müstəqillik əldə etməzdən əvvəl şeyxülislamlıq müəyyən çərçivəyə alınmışdı. Dövlət müstəqilliyinin bərpasından sonra isə şeyxülislamlıq tamamilə yeni müstəviyə qədəm qoydu. Bu, ilk növbədə, Allahşükür Paşazadənin adı ilə bağlıdır. Azərbaycan müstəqilliyinin ilk illərindən böyük dövlətlərin marağında idi. A.Paşazadə həmin illərdə məsuliyyəti öz üzərinə götürdü və mənəvi birliyin möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı. O, Azərbaycanda milli-mənəvi birlik modelini yaradıb. Onun bu istiqamətdəki xidmətləri Ulu Öndər Heydər Əliyev tərəfindən xüsusi qiymətləndirilib.

QMİ sədrinin ölkəmizdəki dini konfessiyalar arasında münasibətlərin yüksək səviyyədə qorunub saxlanılmasında da birbaşa rol oynadığını bildirən Prezidentin köməkçisi qeyd edib ki, sadə insanlar bu nümunəni görüb digər dinlərin nümayəndələrinə hörmət və ehtiramla yanaşırlar. İslam dini müdrik dindir. Onu xurafatdan uzaqlaşdırıb düzgün təqdim edilməsi də Şeyxülislam Allahşükür Paşazadənin xidmətidir. O, çətin zamanda xalqın qarşısına çıxaraq prinsipial mövqe ortaya qoyub. Bu gün bütün dünyada böyük hörmətə malik olan A.Paşazadə Azərbaycandakı tolerant mühiti beynəlxalq aləmdə tanıdır. Şeyxülislam, eyni zamanda, sülh missiyası həyata keçirən diplomatdır və islam dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində də böyük rol oynayıb, müsəlman ölkələrinə təcavüzlərə qarşı daim etirazını bildirib. A.Paşazadə Şeyxülislam olaraq öz missiyasını layiqincə yerinə yetirib və yetirir. 1993-cü ildə o, bütün insanları Ulu Öndərin ətrafında birləşməyə çağırdı. Bu da onun vətəndaşlıq mövqeyinin göstəricisidir. Azərbaycan dövləti onun fəaliyyətini layiqincə qiymətləndirib. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev çıxışlarında A.Paşazadənin xidmətlərini dəfələrlə qeyd ediblər.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov bugünkü tədbirin çox əlamətdar olduğunu bildirərək qeyd edib ki, Allahşükür Paşazadənin 40 illik şeyxülislamlıq fəaliyyəti dövründə xalqımız, dövlətimiz qarşısında böyük xidmətləri var. O, əsl ağsaqqaldır. A.Paşazadə sübut edib ki, ağsaqqallıq yaşla bağlı deyil, o, hələ 30 yaşında olarkən Şeyx seçilmişdi. Həmin vaxt Naxçıvanda məscidlər tikildi. O, hər zaman Ulu Öndərin yanında idi. Ulu Öndərimizin müstəqil Azərbaycana rəhbərliyə başlamasından sonra ölkəmizdə hər sahədə tərəqqi başladı. Şeyxülislam A.Paşazadə bu işə daim öz dəstəyini göstərib.

Azərbaycan Yazıçılar Birliyinin sədri (AYB), Xalq yazıçısı Anar A.Paşazadənin Azərbaycan tarixində ən gənc Şeyxülislam olduğunu vurğulayıb. Qeyd edib ki, o, hələ gənc yaşlarında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına töhfələr verib. Bu gün isə Azərbaycanın tolerantlıq modelinin dünyaya tanıdılmasında əvəzsiz rol oynayır.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov A.Paşazadənin təkcə ictimai xadim deyil, eyni zamanda, siyasi xadim və diplomat olduğunu bildirərək deyib: “Xalqımızın çətin günlərində Azərbaycanda iki nəfər xalqın qarşısına çıxdı, Qorbaçovu ittiham etdi - Ulu Öndər Heydər Əliyev və Şeyxülislam Allahşükür Paşazadə. Ölkəmizdə dini münasibətləri çox düzgün tənzimləyən Şeyxülislam A.Paşazadə dünyada böyük hörmətə malikdir. Bütün cərəyanların nümayəndələri Vəhdət namazlarında iştirak edirlər. Bu isə ölkəmizdəki müxtəlif dini cərəyanlara mənsub insanların vahid mərkəzdə birləşdiyini göstərir. Bu gün Azərbaycan beynəlxalq dini tədbirlərin keçirildiyi mərkəzə çevrilib”.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxışında bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi multikulturalizm siyasətinin əsasını dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulması təşkil edir. Bu siyasətin reallaşmasına QMİ sədri də öz töhfəsini verir. A.Paşazadənin həyat və fəaliyyətindən söhbət açan E.Nəcəfov qeyd edib ki, o, nəinki Azərbaycanda və Qafqazda, eyni zamanda, bütün dünyada böyük nüfuz sahibidir. Ulu Öndər onun xidmətlərindən danışarkən demişdi: “Əgər Allahşükür Paşazadə bütün Qafqazın Şeyxidirsə, biz bununla fəxr etməliyik”.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, Azərbaycanda vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində Allahşükür Paşazadənin şəxsiyyəti çox böyük rol oynayıb. O, bütün dinlərə mənsub insanlara eyni məhəbbətlə yanaşır. Bu səmimiyyəti onu bütün dünyada sevdirir. “Bu gün Azərbaycan böyük dini tədbirlərə evsahibliyi edir. Bunu qısqananlar da var. Lakin bu, bizim həyat tərzimizdir”, - deyə Z.Əsgərov vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Useymin Şeyxülislam Allahşükür Paşazadəni təkcə Azərbaycan üçün deyil, bütün islam dünyası üçün əvəzolunmaz, dahi şəxsiyyət kimi dəyərləndirib. Qeyd edib ki, A.Paşazadə dahiliyin səsidir, islam dünyasının ona böyük ehtiyacı var.

Şeyxülislam Allahşükür Paşazadənin xalqımızın etibarını, inamını qazanmış dini lider olduğunu deyən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, o, bütün Qafqazda dini həmrəyliyin bərqərar olunmasında əvəzsiz rola malikdir. Hər il keçirilən İftar mərasimlərində bütün dinlərə mənsub insanların birgə iştirakı ölkəmizdəki tolerant mühitdən xəbər verir. Ölkəmizdə sülhün, əmin-amanlığın qorunub saxlanılmasında QMİ sədrinin böyük xidmətləri var.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı xatirələrini bölüşüb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev və Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev çıxışlarında ölkəmizdə dinə münasibətdən, multikultural və tolerant mühitdən məmnunluqlarını ifadə ediblər. Bildirilib ki, dini tolerantlığın qorunub saxlanılması daim dövlətin diqqət mərkəzindədir və tolerantlıq Azərbaycan xalqının həyat tərzidir. Bütün dinlərə mənsub insanlar bu ölkədə rahat, sərbəst şəkildə yaşayırlar. Ulu Öndər Heydər Əliyev deyirdi ki, tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür. Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasət hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir və zənginləşdirilir. Buna görə də Azərbaycandakı bütün xalqlar özlərini sərbəst, rahat hiss edir, dini inanclarına görə mənfi münasibətlərə məruz qalmırlar.

Sonra Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bütün xoş sözlərə görə təşəkkürünü bildirib. O, Azərbaycanda islam dininin sovet dövründəki çətin vəziyyətindən danışaraq bildirib ki, xalqımız gizli də olsa, öz imanını yaşadıb. Ulu Öndər Heydər Əliyev hələ o dövrdə islamın inkişafı üçün işlər görür, bu sahədə mütəxəssislərin yetişdirilməsi istiqamətində fəaliyyət göstərirdi.

“Ulu Öndər çox imanlı şəxsiyyət idi. Bu gün Azərbaycanın tolerant ölkə kimi tanınmasının əsasını Ümummilli Lider qoyub. Hazırda isə bu işi Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün islamın təbliği və tanıdılması üçün hər cür şərait var. Dövlətimiz bu işə xüsusi dəstək göstərir”, - deyə Allahşükür Paşazadə qeyd edib.

Tədbir ziyafətlə davam edib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi” mövzusunda konfrans





Avqustun 22-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Baş Nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov hazırda ölkəmizin möhtəşəm inkişaf dövrünü yaşadığını bildirib. Azərbaycanın dünyanın ən uğurlu gənc dövlətlərindən biri olduğunu deyən Əli Əhmədov qeyd edib ki, ölkəmiz heç vaxt indiki kimi güclü, qüdrətli, sabit, əmin-aman olmayıb. Hazırda Azərbaycan beynəlxalq müstəvidə böyük nüfuza malik olan ölkədir və dünyada baş verən proseslərdə fəal iştirak edir, mövqeyini ortaya qoyur.

Baş Nazirin müavini vurğulayıb ki, Azərbaycan mədəniyyətlərarası dialoqa böyük töhfələr verən ölkədir. Azərbaycanda mültikulturalizm dövlət siyasətinin tərkib hissəsidir. Dünyada sivilizasiyalar arasında toqquşmaların baş verdiyi bir zamanda mədəniyyətlərarası dialoq, multikulturalizm ideyasının təbliği xüsusi önəm daşıyır. Əli Əhmədov əlavə edib ki, dünya birliyi, beynəlxalq təşkilatlar da Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfələri birmənalı şəkildə etiraf edirlər. Bunun aydın ifadələrindən biri də mütəmadi olaraq bu mövzuda nüfuzlu beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsidir.

YAP Sədrinin müavini-icra katibi vurğulayıb ki, Azərbaycan dövlətinin bu sahədəki fəaliyyətinə Heydər Əliyev Fondu çox ciddi dəstək verir. Fond yarandığı vaxtdan bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir və bu sahədə ilk təşəbbüslərin və addımların atılmasında mühüm rol oynayıb.

Əli Əhmədov qeyd edib ki, avqustun 26-da Azərbaycan Respublikasının Birinci-vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini Mehriban Əliyevanın doğum günüdür. Sivilizasiyalarası dialoqun təbliğində Mehriban xanım Əliyevanın böyük xidmətləri olduğunu diqqətə çatdıran Əli Əhmədov onu YAP-ın çoxsaylı üzvləri adından təbrik edib. “Azərbaycanın qazandığı uğurlarda Mehriban xanım Əliyevanın özünəməxsus rolu və əməyi var. O, Azərbaycanda birinci xanım obrazının yaranmasında və bu missiyasının uğurla həyata keçirilməsində müstəsna xidmətlər göstərib. Eyni zamanda, Birinci vitse-prezident kimi yüksək səviyyədə fəaliyyət göstərir və dövlət siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Yeni Azərbaycan Partiyasının nailiyyətlərində də Mehriban xanım Əliyevanın fəaliyyəti əhəmiyyətli rol oynayır. O, həmçinin Azərbaycanı dünyada layiqincə təmsil edir, ölkəmiz barədə həqiqətləri dünyaya çatdırır. Əminik ki, Mehriban xanım Əliyeva Azərbaycanın inkişafına bundan sonra da böyük töhfələr verəcək”, - deyə Baş Nazirin müavini vurğulayıb.

Tədbirdə Mədəniyyət nazirinin birinci müavini, YAP İdarə Heyətinin üzvü Vaqif Əliyev, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov və Azərbaycanın Xalq artisti, professor Mənsum İbrahimov çıxış edərək Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən danışıb, onun sivilizasiyalararası dialoqa, eləcə də milli-mənəvi dəyərlərimizin qorunmasında və dünyada təbliğ olunmasında verdiyi töhfələrdən danışıblar.

Sonda Yeni Azərbaycan Partiyasının təbrik videoçarxı təqdim olunub.

# *Əli ƏHMƏDOV:* “Hökumət süni qiymət artımına yol verilməməsi üçün lazımi tədbirlər görür”










Avqustun 22-də Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov və Kənd Təsərrüfatı naziri İnam Kərimov mətbuat nümayəndələrinin iştirakı ilə ərzaq məhsullarının satışı ilə məşğul olan bir neçə ticarət mərkəzinə baxış keçiriblər.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini Əli Əhmədov mətbuat nümayəndələrinə açıqlamasında Azərbaycan hökumətinin süni qiymət artımına yol verilməməsini daim diqqət mərkəzində saxladığını, bu məqsədlə lazımi tədbirlər görüldüyünü deyib.

Kənd təsərrüfatı məhsullarının keyfiyyəti, qiyməti və əhaliyə göstərilən xidmətin səviyyəsi ilə maraqlanan Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidentinin və hökumətinin apardığı siyasətin əsas məqsədi ölkədə daxili istehsalın inkişaf etdirilməsi, xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalının artmasıdır.

Baş Nazirin müavini qeyd edib ki, son illər Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artıb. Beləliklə də əhalinin ərzaq təhlükəsizliyi problemi, demək olar ki, həllini tapıb. Hazırda ölkə vətəndaşlarının ərzaq və qidaya olan tələbatının əksər hissəsi yerli istehsal hesabına ödənilir.

Aqrar sektorda böyük irəliləyiş olduğunu vurğulayan Əli Əhmədov ölkədə məhsul bolluğunun təmin edildiyini, eyni zamanda, istehsal edilən məhsulların bir hissəsinin xaricə ixrac olunduğunu söyləyib. Diqqətə çatdırıb ki, Azərbaycanın ixrac potensialının formalaşmasında və inkişaf etdirilməsində çox böyük rol oynayan sahələrdən biri də kənd təsərrüfatıdır. Bu sahənin inkişafı fermerlərin məşğulluğunun artırılması ilə yanaşı, ölkənin ərzağa olan ehtiyacını daha dolğun ödəməyə imkan yaradacaq. Digər məqsəd isə Azərbaycan vətəndaşının ərzaq qıtlığından əziyyət çəkməməsidir.

Vurğulanıb ki, Azərbaycan hökuməti dövlət başçısı İlham Əliyevin tapşırığı ilə bu istiqamətdə lazım olan bütün zəruri tədbirləri görür. Belə ki, müəyyən yerlərdə satış yerləri, logistik mərkəzlər və ticarət mərkəzləri yaradılıb. “Burada xidmətlərin səviyyəsi və keyfiyyəti bir-birindən fərqlənir. Bütün bunların hamısı müsbət haldır. Eyni zamanda, bizi maraqlandıran əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda məhsul bolluğu əsasında məhsulun qiymətinin mümkün qədər aşağı salınması təmin edilsin. Biz istəyirik ki, “tarladan-süfrəyə” zəncirində iştirak edən hər iki tərəf - fermer də, istehlakçı da məmnun qalsın. Fermerlər istehsal etdikləri məhsulları müvafiq bir qiymətə sata bilsinlər ki, ailə büdcələrini formalaşdırsınlar, digər tərəfdən isə istehlakçı üçün də məhsulun qiyməti əlverişli olmalıdır”, - deyə Baş Nazirin müavini qeyd edib.

Reyd zamanı üç müxtəlif ticarət mərkəzində olduqlarını, məhsulların qiymətlərinin və xidmətlərin bir-birindən fərqləndiyini bildirən Əli Əhmədov əhalinin müxtəlif təbəqələrinin ehtiyaclarının ödənilməsi üçün müxtəlif səviyyəli xidmətlər və məhsulların təklif edildiyini, eləcə də yüksək qiyməti olan məhsullara rast gəlindiyini deyib: “Biz məhsulların qiymətində müşahidə etdiyimiz fərq barədə də düşünməliyik. Xüsusilə bazardakı məhsullarla yarmarkadakı məhsulların qiyməti arasında çox böyük fərq nəzərə çarpır. Hökumət bunun üzərində ciddi şəkildə düşünməlidir. Biz qiymət artımının qarşısını bolluq yaratmaq yolu ilə almalıyıq. Kimsə qiyməti süni şəkildə artırmağa çalışarsa, hökumət iqtisadi tədbirlər görməlidir. Ən təsirli tədbirlərdən biri o ola bilər ki, satış mərkəzlərinin və vasitəçi mərkəzlərin sayı artırılsın. İnsanlara xidmət göstərən satış mərkəzləri, habelə fermerdən məhsulu alıb bu mərkəzlərə çatdıran vasitəçilərin sayı nə qədər çox olarsa, qiymət də lazımınca tənzimlənər”.

Əli Əhmədov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti süni qiymət artımına yol verilməməsinə çox ciddi nəzarət edir. Hökumət də bu məsələni daim diqqət mərkəzində saxlayır. Çalışmalıyıq ki, vətəndaş məhsulun keyfiyyətindən, qiymətindən və xidmətdən məmnun qalsın. İctimai nəzarətin də önəminə toxunan Baş Nazirin müavini bunun ən səmərəli vasitələrindən birinin mətbuat olduğunu vurğulayıb. O, KİV-in bu işdə fəal olmasını və hökumətə dəstək göstərməsini tövsiyə edib.



# Nəcib təşəbbüsün və xeyirxahlığın ünvanı

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim məcburi köçkünlərin yanındadır

*Əvvəli 1-ci səh.*

İnşallah, Qarabağ problemi də öz həllini gərək sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında tapsın, soydaşlarımız doğma torpaqlarına qayıtsın. Hələ ki bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə, işlə təmin etmək Azərbaycan dövlətinin ən əsas vəzifəsidir. İnanın ki, bu sahədə bütün lazımlı işlər, addımlar atılır... Gözəl, yaxşı, müsbət dinamika var. Əgər 2017-2018-ci illər ərzində 6126 mənzil təhvil verilibsə, təkcə bu il 6 min mənzil təhvil veriləcək. Yəni bu, o deməkdir ki, 6 min ailənin yaşayış şəraiti yaxşılaşacaq".

Azərbaycanın Birinci vitse-prezidenti xüsusi olaraq vurğuladı ki, fəaliyyətində ən vacib, mühüm güc mənbəyi xüsusən məcburi köçkünlərlə ünsiyyətdə olmaqdır: "...Mən sizin sevginizi, dəstəyinizi hiss edəndə daha inamlı oluram. Mənim üçün böyük şərəfdir ki, insanlar mənə dəstək verir, məni sevir, mənə inanır. Sizi əmin etmək istəyirəm ki, mən sizin etimadınızı doğruldacağam".

Azərbaycanın Birinci vitse-prezidentinin xoşməramlı fəaliyyətində torpaqlarımız uğrunda canından keçən əsgər və zabitlərimizin şərəfinin daim uca tutulması, onların ailəsinin dövlət qayğısı ilə hərtərəfli təmin olunması özünü daha qabarıq şəkildə göstərməkdədir. Bu yolda sağlamlığını itirmiş vətən oğulları da diqqətdən kənarda qalmayıb. Üç il bundan öncə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinin həyata keçirilməsinə başlayıb. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Ötən 3 il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub.



Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşərək, onlarla səmimi söhbət də etdi. Söhbət zamanı Birinci vitse-prezident vətənpərvər övladlarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğuladı: "Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər".

"Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma ən böyük sərvətimiz Azərbaycan xalqıdır" deyən birinci xanım onu da vurğuladı ki, Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili yenidən həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

Mehriban xanım Əliyeva hələ Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməmişdən illər öncə də xeyirxahlıq missiyası ilə özünə dərin rəğbət qazanıb. Onların arasında yurd-yuvası təcavüzkar Ermənistan tərəfindən darmadağın edilmiş bir milyondan artıq qaçqın və məcburi köçkünün olması isə təbiidir. Axı bu insanlar daha çox sosial yardıma, mənəvi dəstəyə ehtiyacı olanlardır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# *Müdafiə Nazirliyi:* "MiQ-29" tipli döyüş təyyarəsinin qəzaya uğrama səbəbi müəyyən edilib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi "MiQ-29" tipli döyüş təyyarəsinin qəzaya uğrama səbəbinin müəyyən edilməsi ilə bağlı məlumat yayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları həyata keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin "MiQ-29" tipli döyüş təyyarəsinin uçuşun bort qeydiyyatçısındakı ("qara qutu") məlumatlar və uçuşun aparılması ilə bağlı digər texniki sənədlər mütəxəssislər tərəfindən təhlil edilərək öyrənilib.

Müdafiə nazirinin əmrinə əsasən, qəzanın səbəblərinin müəyyən edilməsi ilə bağlı yaradılan Aviasiya hadisəsinin araşdırılması komissiyasının gəldiyi son rəyə görə təlim-məşq uçuşlarına cəlb edilən təyyarə qəzaya uğrama anına qədər döyüş qabiliyyətli və tam saz vəziyyətdə olub. Hadisənin başvermə səbəblərinin öyrənilməsi zamanı məlum olub ki, təyyarə Xəzər dənizinə düşməzdən əvvəl havada yad cisimlə (quş və ya quş dəstəsi) toqquşub və pilot xəsarət alıb. "Qara qutu"dan əldə edilən məlumatlara əsasən, pilot qəzanın qarşısını almaq məqsədilə təyyarənin idarə olunmasını bərpa etməyə cəhd göstərib. Lakin pilotun aldığı ağır bədən xəsarəti bunu mümkünsüz edib və nəticədə aviasiya vasitəsinin qəzaya uğramasına gətirib çıxarıb.

"Bəzi kütləvi informasiya vasitələrində aviasiya vasitələrinin gövdəsində yerləşən bort qeydiyyatçısında - "qara qutu"da olan məlumatların oxunması üzrə ölkəmizdə mütəxəssislərin və xüsusi avadanlığın olmaması barədə əsassız iddialar yer alıb.

Bildiririk ki, hər uçuşdan sonra "qara qutu"dakı məlumatlar peşəkar aviasiya mütəxəssislərimiz tərəfindən xüsusi laboratoriyada öyrənilir, təhlil edilir, uçuş barədə informasiya müəyyənləşdirilir və bunun nəticəsində hərbi pilotun qarşıya qoyulan tapşırıqları necə icra etməsi və aviasiya vasitəsinin texniki vəziyyəti barədə tam təsəvvür yaranır.

Bütün bunları nəzərə alaraq, məlum məsələyə dair qeyri-peşəkar şərhlərə və əsassız iddialara son qoyulmasını məqsədəuyğun hesab edirik", - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilir.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, avqustun 22-də Sumqayıt şəhərinin, Lənkəran, Şamaxı və Şuşa rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və baxılması üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razı qaldıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov avqustun 22-də Şəmkirdə Gədəbəy və Şəmkir rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

Elə həmin gün Xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Tovuzda Ağstafa, Qazax və Tovuz rayonlarından olan vətəndaşları qəbul edib.

Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 32 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, şəhid adı və statusunun verilməsi, övladlarının təkrar tibbi müayinəyə göndərilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb olunma, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

"Azərişıq" ASC-nin rəhbərliyi qərb bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.

"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən Vüqar Əhmədov avqustun 22-də Gəncə şəhərində Gəncə şəhər və Samux rayonundan olan 27-yə yaxın vətəndaşı qəbul edib.

ASC-nin müvafiq qurumlarının rəhbərlərinin də iştirak etdiyi qəbullarda Gəncə şəhəri, Samux və Şəmkir rayonlarından olan hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Vətəndaşların fərdi müraciətlərini diqqətlə dinləyən "Azərişıq" rəhbərliyi bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün cəmiyyətin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin əsas hissəsi yerindəcə həllini tapıb. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib.

Eyni zamanda, "Azərişıq" ASC-nin sədrinin müavini Ramil Yusifov Şəmkirdə 12 vətəndaşın müraciətini dinləyib.

* * *

Avqustun 22-də Vergilər nazirinin müavini Sahib Ələkbərov Qobustan şəhərindəki vergiödəyicilərinə xidmət mərkəzində Qobustan, Şamaxı və Ağsu rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vergi qanunvericiliyinin tətbiqi, kənd təsərrüfatı sahəsində uçotun aparılması, vergilərin hesablanması və ödənilməsi, vergi borcları, əmək münasibətləri sahəsində şəffaflığın təmin olunması, vergi orqanlarında işə qəbul, habelə vergi inzibatçılığı sahəsində vergiödəyicilərinin qarşılaşdıqları bir sıra məsələlər qaldırılıb, kənd təsərrüfatı sahəsində uçotun dürüstləşdirilməsi və şəffaflaşdırılması ilə bağlı Şamaxıda start verilmiş pilot layihə çərçivəsində vergiödəyicilərində yaranan suallar cavablandırılıb.

Vətəndaşların qaldırdıqları məsələlərin bəziləri yerindəcə həll olunub, digərləri barədə nazirliyin müvafiq strukturlarına aidiyyəti tapşırıqlar verilib.

***AZƏRTAC***

# Azərbaycan XİN separatçı rejimin hesabatının BMT-də yayılmasına münasibət bildirib

Xarici İşlər Nazirliyi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin hesabatının BMT-də yayılması ilə bağlı KİV-də dərc olunan məlumata münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı KİV-in sualını cavablandıran XİN-in mətbuat katibi Leyla Abdullayeva deyib: "Qeyd etmək istərdim ki, Ermənistan BMT-də üzvlük haqqından sui-istifadə edərək BMT-dəki nümayəndəsinin Baş katibə ünvanladığı məktubunun əlavəsi qismində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərdəki qanunsuz separatçı rejimin kağızını yayıb. Xatırladım ki, Ermənistan tərəfindən BMT, eləcə də ATƏT çərçivəsində qanunsuz separatçı rejimin kağızlarını yaymaq təcrübəsindən istifadə olunur, lakin bu, heç bir halda bu təşkilatların mövqeyini əks etdirmir.

Ermənistan tərəfinin BMT çərçivəsində növbəti təxribatına cavab olaraq ölkəmizin BMT yanında nümayəndəliyinin BMT Baş katibinə etiraz məktubu ünvanlanıb və məktubumuz bu günlərdə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunacaq".

# Baş Prokurorluqda Tofiq Yaqubluya xəbərdarlıq olunub

Baş Prokurorluqda aparılmış araşdırmalarla Bakı şəhər sakini Tofiq Yaqublunun "Facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qəsdən və qərəzli şəkildə reallığa uyğun olmayan, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmağa xidmət etməklə insanların hakimiyyət əleyhinə qanunsuz hərəkətlərə sövq edilməsinə, onların qanunsuz etiraz aksiyaları keçirməyə təhrik olunmasına, habelə ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına yönələn təxribat xarakterli cəhdlər etməsi müəyyənləşdirilib.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bununla əlaqədar T.Yaqublu Baş Prokurorluğa dəvət edilib. Ona "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönələn, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi məqsədyönlü tədbirlərin üzərinə kölgə salmağa xidmət edən həmin məlumatların yayılmasını gələcəkdə davam etdirəcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edərək nəzərə çatdırır ki, ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, insanları qanunsuz etiraz aksiyaları keçirməyə təhrik etməklə hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar və digər qanunazidd hərəkətlərin qarşısı qətiyyətlə alınacaqdır.

# Bakıda XIX Beynəlxalq Gənclər Forumu keçirilir

Avqustun 22-də Bakı Konqres Mərkəzində XIX Beynəlxalq Gənclər Forumunun açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, "Alovu paylaş, həyat xilas et" devizi altında keçirilən forumda çıxış edən Səhiyyə nazirinin müavini Elsevər Ağayev bu tədbirin ölkəmizdə ilk dəfə olaraq keçirildiyini və humanist mövzuya həsr olunduğunu bildirib. Nazir müavini Azərbaycanda qan donorluğu sahəsində qəbul olunan qanunvericilik aktları, dövlət proqramları haqqında məlumat verib. O, ölkəmizdə qan donorluğu sahəsində əldə olunan nailiyyətlərdən danışıb.

Nazir müavini, həmçinin qeyd edib: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən etibarən "Talassemiyasız həyat naminə" layihəsi həyata keçirilməyə başlanıb. Müxtəlif ölkələrdən mütəxəssislər dəvət olundu, irsi qan xəstəliklərinə dair dövlət proqramı hazırlandı. Layihə cəmiyyət tərəfindən çox müsbət qarşılandı. 2005-ci ildə emal olunan donor qanının miqdarı 10 tona yaxın idisə, ötən il təxminən 4.5 dəfə artaraq 44 ton olub. Toplanan qanın böyük bir hissəsi gənclərin payına düşüb. Bu onu göstərir ki, Azərbaycan gəncləri humanizm prinsipləri ilə yaşayır, öz qanlarını ehtiyacı olanlardan əsirgəmirlər".

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Azərbaycanda gənclərin sağlamlığına xüsusi diqqət yetirildiyini, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında qan donorluğunun təbliği və təşviqinə yer ayrıldığını diqqətə çatdırıblar. Onlar gənclər arasında belə qanvermə aksiyalarının keçirildiyini vurğulayıblar.

BMT-nin Azərbaycan nümayəndəliyinin rezident əlaqələndiricisi Qulam İshaqzai, Beynəlxalq Qan Donorları Cəmiyyətləri Federasiyasının icraçı direktoru Sayah Abdelmalik, Beynəlxalq Gənclər Komitəsinin sədri Abdo Saad forumun dünyada könüllü, təmənnasız qan donorluğunun inkişafına öz töhfəsini verəcəyinə əminliklərini vurğulayıblar.

Tədbir məruzələrlə davam etdirilib. Səhiyyə Nazirliyinin baş hematoloqu Çingiz Əsədovun "Qan donorluğunun inkişafı sahəsində Azərbaycan təcrübəsi", Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadənin "Qan donorluğu ictimai səhiyyənin əsas istiqaməti kimi", "Qan Donorları Assosiasiyası" İctimai Birliyinin sədri Fuad Əsgərovun "Qan donorluğunun inkişafında könüllülüyün rolu" mövzularında məruzələri dinlənilib.

Sonra Azərbaycanda könüllü qan donorluğunun təbliğat və təşviqat işlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Yekunda forumda iştirak edən ölkə nümayəndəliklərinin təqdimatları olub və könüllü donorluğun inkişafına töhfə verənlərə təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, avqustun 21-dən 25-dək Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Gənclər Fondu, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nəzdində Mərkəzi Qan Bankı və "Qan Donorları Assosiasiyası" İctimai Birliyinin Birgə Təşkilatçılığı ilə gənclər üçün XIX Beynəlxalq Gənclər Forumu keçirilir. Forumun əsas məqsədi Azərbaycanda könüllü, təmənnasız qan donorluğunun inkişafına dəstək vermək, gəncləri bu humanist, xeyirxah işə həvəsləndirməkdir. Forumda 30-dan çox ölkədən nümayəndələr, o cümlədən Beynəlxalq Qan Donorları Cəmiyyətləri Federasiyasının və Beynəlxalq Gənclər Komitəsinin rəhbər şəxsləri iştirak edirlər.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənaye sektorunda orta aylıq maaş 585 manatdır

Cari ilin 6 ayı üzrə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 585,2 manat olmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici keçən ilin eyni dövrünə nisbətən 8,2 faiz çoxdur. Sözügedən müddətdə ölkə üzrə ən yüksək orta aylıq əməkhaqqı neft-qaz sektorunda qeydə alınmışdır - 3133,6 manat. Qeyri neft-qaz sektorunda isə orta aylıq maaş 527,4 manat təşkil etmişdir.

Maaş fərqi dövlət və özəl müəssisələrində çalışanlar arasında da yüksəkdir. Belə ki, son məlumata əsasən, ölkə üzrə dövlət müəssisələrində çalışanların orta aylıq əməkhaqları 477,8, özəl müəssisələrdə işləyənlərinki isə 724,9 manat olmuşdur.

## Qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır

Həyata keçirilən genişmiqyaslı layihələr çərçivəsində 15 şəhər və rayonda (Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt və Şirvan şəhərləri, Abşeron, Ağdam, Ağstafa, Balakən, Beyləqan, Biləsuvar, Füzuli, Hacıqabul, Qazax və Ağsu rayonları) qazlaşmanın səviyyəsi 100 faizə çatıb.

Yevlax, Bərdə, Kürdəmir, Tərtər, Ucar, Goranboy və Zərdab rayonlarında isə bu göstərici 90 faizdən çoxdur. Bundan başqa, Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndi təbii qazla tam təmin olunub.

Hazırda Bakıda 22 yaşayış məntəqəsinin qazlaşdırılması tədbirləri davam edir. Bölgələrdə isə bu il üçün 33 şəhər və rayonda 13 qəsəbə və 23 kəndin, eləcə də 26 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub. Artıq 21 məntəqədə açılış baş tutub, 34 yerdə isə işlər tam başa çatdırılıb, istismara hazırdır. Beləliklə, ölkədə qazlaşdırmanın səviyyəsi ümumilikdə 96 faizə yaxınlaşır.

## Azərbaycanın nailiyyətlərindən qürur duyuruq

*Əvvəli 1-ci səh.*

Əhalinin içməli suya tələbatını ödəmək üçün bir neçə artezian quyusu qazılıb. Magistral yoldan kəndimizə qədər 5 kilometr məsafəyə yenidən asfalt döşənib.

Məktəbimizin binası olduqca yararsız vəziyyətdə idi. Bir qədər əvvəl bununla bağlı şad xəbər eşitdik. Bildik ki, kənd məktəbi üçün yeni bina tikiləcək. Artıq binanın tikintisində xeyli iş görülüb. Çox güman ki, balalarımız yeni dərs ilinə müasir və abad məktəb binasında başlayacaqlar.

Kəndimizdə eləcə də Mədəniyyət evi və Dövlət Gürcü Dram Teatrı fəaliyyət göstərir. Dövlətimizin mədəniyyət sahəsinə göstərdiyi qayğıdan bizim teatr da bəhrələnib.

Bütün bunlar məni ürəkdən sevindirir. Dediklərimin hamısına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq hisslərimin həddi-hüdudu yoxdur. Bir də onu demək istəyirəm ki, bütün Azərbaycan xalqı kimi, burada yaşayan gürcülər də dövlətimizin siyasətini dəstəkləyir.

***Merab DEKONİDZE,***
***Qax rayonunun Əlibəyli kənd sakini***

# Gələn ildən yeni aqrar sığorta mexanizminin tətbiqinə başlanılır

### Yeni mexanizm qabaqcıl dünya təcrübələri əsasında hazırlanıb




*Əvvəli 1-ci səh.*

Yeni qanun kənd təsərrüfatı sığortası fəaliyyətinin əsaslarının müəyyən edilməsinə, Aqrar Sığorta Fondunun fəaliyyətə başlamasına, dövlət-özəl tərəfdaşlığının təmin edilməsinə, kənd təsərrüfatı sığortasının qabaqcıl təcrübə əsasında həyata keçirilməsinə, kənd təsərrüfatı sığortası üzrə ekspertlər institutunun yaradılmasına, kənd təsərrüfatı sığortası üzrə statistik məlumatları özündə cəmləşdirən elektron informasiya sisteminin qurulmasına, kənd təsərrüfatı sığortası mexanizmində mütərəqqi təcrübəyə malik olan ölkələrin təcrübəsinin daha da yaxından öyrənilməsi və ölkədə olan kənd təsərrüfatı risklərinin təkrarsığortalanması üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, sabit və təhlükəsiz kənd təsərrüfatı sığortası mexanizminin formalaşması üçün münbit zəminin formalaşmasına xidmət edəcək. Prezidentin tapşırıqlarına əsasən bu mexanizmin həyata keçirilməsi üçün görüləcək işlər müəyyən edilib.

Yeni sığorta mexanizmi Azərbaycanda ilk dəfə olaraq müştərək sığorta sisteminin yaradılmasını nəzərdə tutur. Müştərək sığorta sistemi sığortaçıların birgə vəsaitləri ilə özlərini sığorta etdirməsidir. Sığorta şirkətlərinin etdiyi sığortadan fərqli olaraq, bu sistemdə heç bir sığorta hadisəsi baş vermədikdə yığılmış vəsaitlər silinmir və növbəti ilə saxlanılır. Üstəlik, dövlət sığorta vəsaitinin müəyyən edilən faizi həcmində sığorta edilənlərə subsidiya ayıracaq. Təkrarsığorta siyasəti və sığorta risklərinin düzgün qiymətləndirilməsi nəticəsində bu sahədə dayanıqlı və effektiv fəaliyyət təmin ediləcək, katastrofik fəlakətlər zamanı dövlət büdcəsinin artıq yüklənməsinin qarşısı alınacaq.

Bu tədbirlər çərçivəsində etibarlı kənd təsərrüfatı sığortası mexanizminin tətbiqi qeyri-neft sektorunda ÜDM-in artırılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına və aqrar sektorun investisiya cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərmək imkanına malikdir. Nəticədə yeni aqrar sığorta sisteminin tətbiqi kənd təsərrüfatı istehsalının davamlılığının təmin edilməsinə yönəlib.

Yeni mexanizmdə Aqrar Sığorta Fondunun yanında sığorta şirkətlərinin təsisçiliyi ilə idarəedici qurumun yaradılması nəzərdə tutulub. İdarəedici şirkətin əsas funksiyası fondun icra səlahiyyətlərini həyata keçirmək, sığorta müqavilələri satmaq, sığorta hadisələrini tənzimləmək, elektron informasiya sisteminin hazırlanması və dəstəklənməsini təşkil etmək, müstəqil ekspertlər hazırlamaq və onlarla işi qurmaqdır.

Sonda qeyd edək ki, yeni sığorta mexanizmi 2020-ci ildən tətbiq olunacaq.

***"Azərbaycan"***

## Manata etibar artır

Bu ilin 6 ayı ərzində banklarda milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 24,7 faiz artmış, xarici valyutada əmanətlər isə 2,5 faiz azalmışdır.

Bu barədə Mərkəzi Banka istinadən Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda bildirilir ki, sözügedən dövrdə əhalinin banklardakı əmanətlərinin Azərbaycan manatı ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz artaraq 8 milyard 736,3 milyon manat olmuşdur. Əmanətlərin 56,5 faizi xarici, 43,5 faizi milli valyutada qoyulmuşdur.

## DGK çoxdan gözlənilən addımı atmaq niyyətindədir

AR Dövlət Gömrük Komitəsi Türkiyə, Gürcüstan və Rusiyaya avtobus səfərlərində gömrük yoxlamalarını sadələşdirmək niyyətindədir.

Bu barədə komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən xəbər veriblər. Bildirilir ki, DGK hazırda üç ölkə ilə bu istiqamətdə danışıqlar aparır. Layihənin icrası üçün memorandumun hazırlanması işləri görülür.

Layihə tətbiq olunduğu halda Bakıdan Türkiyə, Rusiya və Gürcüstana gedən və əks istiqamətdə gələn avtobuslar yalnız bir dəfə başlanğıc nöqtəsində gömrük yoxlanışından keçəcək.

## ASCO-ya məxsus gəmi Qara dənizdə müntəzəm fider konteyner xətti üzrə daşımalar həyata keçirəcək

Gürcüstanın paytaxtı Tbilisidə "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin işçi qrupunun iclası keçirilib.




Trend-in məlumatına görə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sədri Rauf Vəliyevlə yanaşı, Gürcüstan, Qazaxıstan və Rumıniyadan olan dəmiryol və dəniz nəqliyyatı şirkətlərinin nümayəndələrinin də qatıldığı yığıncaqda Qara dənizdə Gürcüstanın Batumi və Rumıniyanın Konstansa limanları arasında ASCO gəmisi vasitəsilə konteyner daşımalar xəttinin yaradılması məsələsi müzakirə olunub və bununla bağlı qərar qəbul edilib.

Bu xətt üzrə əsas yük kimi Avropa-Çin-Avropa və Avropa-Mərkəzi Asiya-Avropa istiqamətlərindən tranzit yüklərin daşınması nəzərdə tutulub. Gözləntilərə görə, adıçəkilən istiqamətlər üzrə Qara dənizdə konteyner xətti ilə yüklərin çatdırılması müddəti azalacaq. Bu da Qara dəniz üzərindən də keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Middle Corridor) cəlbediciliyini və Azərbaycan üzərindən keçən tranzit konteyner daşımalarının həcmini artıracaq.

Qeyd edək ki, ASCO-nun Qara dənizdə fider gəmisinin ilk sınaq səfərinin 2019-cu il sentyabrın 20-dək həyata keçirilməsi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, fider gəmi hər 10 gündən bir (ayda 3 dəfə) səfərə çıxacaq. Yük həcmi çoxalacağı halda xətt üzrə gəmilərin sayının və reyslərin müntəzəmliyinin artırılması da nəzərdə tutulub.



# Abşeronda kombi istehsalı zavodu istifadəyə verilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata görə, Abşeron rayonu ərazisində dövlət dəstəyi, yerli və Çin investisiyası əsasında kombi istehsalı zavodu fəaliyyətə başlayıb.

"Elektrogas" MMC-yə məxsus Azərbaycan-Çin müştərək müəssisəsi olan zavodun illik istehsal gücü 120 min kombidir. Hazırda zavodda 30 nəfər işlə təmin olunub. Gələcəkdə isə zavodda 200-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Zavodun yaradılmasına 2 milyon manat investisiya qoyulub ki, bunun da yarısı xarici sərmayələrdir. Gələcəkdə zavoda yatırılacaq sərmayələrin həcmi 11 milyon manata çatdırılacaq. Bu, zavodun istehsal profilinin daha da genişləndirilməsinə imkan verəcək.

Müəssisənin məhsulları daxili tələbatın ödənilməsinə yönəldilməklə yanaşı, həm də gələcəkdə "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə ixrac ediləcək.

Kombi zavodunun fəaliyyətə başlaması ilə bağlı müxtəlif dövlət qurumlarının, yerli və çinli sahibkarların iştirakı ilə təşkil olunmuş tədbirdə "Elektrogas" MMC-yə investisiya təşviqi sənədi təqdim olunub. Bu sənəd şirkətə bir sıra güzəştlərdən istifadə etməyə imkan verir. Belə ki, investisiya təşviqi sənədi şirkəti 7 il müddətinə mənfəət vergisinin 50 faizindən, əmlak, torpaq vergilərindən, idxal olunan avadanlıq və qurğular üçün ƏDV-dən və gömrük rüsumlarından azad edir.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər və islahatlar barədə məlumat verib, zavodun fəaliyyətə başlaması üçün göstərilən dövlət dəstəyi tədbirlərini diqqətə çatdırıb. Qeyd olunub ki, KOBİA tərəfindən "Elektrogas" MMC-yə hərtərəfli dəstək göstərilib, o cümlədən yerli və xarici investorlarla görüşlər keçirilib, xarici investorlara Azərbaycanın biznes mühiti və dövlət dəstəyi mexanizmləri haqqında ətraflı məlumat verilib, konsaltinq və hüquqi məsləhət xidmətləri göstərilib. Kombi zavodunun fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafında, yeni iş yerlərinin yaradılmasında, istilik sistemlərinə olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli olacaq.

"Elektrogas" MMC-nin direktoru Elnur Cəmilli zavodun fəaliyyəti barədə danışaraq ölkəmizdə özəl sektorun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, Azərbaycana xarici investisiyaların cəlb edilməsində önəmli olduğunu qeyd edib, investisiya təşviqi sənədinin iş adamlarının fəaliyyətlərini daha da genişləndirmələri üçün əlverişli imkan yaratdığını vurğulayıb.

Zavoda sərmayə yatıran çinli investor Lui Fujin isə təmsil etdiyi şirkətin fəaliyyəti barədə məlumat verib, Azərbaycanda yerli və xarici investorlar üçün əlverişli şərait yaradıldığını və bu baxımdan ölkəmizə investisiya yatırdıqlarını bildirib, KOBİA tərəfindən layihəyə hərtərəfli dəstək göstərildiyini qeyd edib.

Sonra tədbir iştirakçıları kombi zavodunun fəaliyyəti və istehsal prosesi ilə tanış olublar.

# Bacarıqlı mütəxəssis, səriştəli işçi müvəffəqiyyətin təminatçısıdır

### Ölkəmizdə həyata keçirilən beynəlxalq neft-qaz layihələrində çalışanların 90 faizini Azərbaycan vətəndaşları təşkil edir

Hazırda neft-qaz layihələri çərçivəsində dənizdəki və qurudakı əməliyyatlarda, eləcə də tikinti işlərində çalışanların əksəriyyəti Azərbaycan vətəndaşıdır. "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə sazişin imzalandığı ilk dövrlərdə isə onların sayı xeyli az idi. Odur ki, yerli işçilərin sayının getdikcə artırılması və 90 faizə çatdırılması qarşıya məqsəd kimi qoyulmuşdu.



Ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətindən aldığımız məlumata görə, hazırda burada çalışan, o cümlədən müddətli müqavilə əsasında işləyən Azərbaycan vətəndaşlarının sayı 2510 nəfərdir. Keçən ilin ortalarından şirkətin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edib. İxtisas tələb olunmayan işlərdə çalışanların isə hamısı yerli sakinlərdir.

Şirkət milli işçi qüvvəsinin nisbətinin artırılması ilə bağlı kadrların milliləşdirilməsi üzrə beşillik plan hazırlamışdı. Bu planın hədəfi 2018-ci ilin sonuna qədər milli işçi qüvvəsinin nisbətini 90 faizə çatdırmaq idi. Plan həm daimi, həm müddətli müqavilə əsasında işləyən ixtisaslı işçiləri, həm də layihələrə birbaşa şirkət tərəfindən cəlb edilmiş müvəqqəti işçi qüvvəsini əhatə edirdi. Əvvəllər xarici əməkdaşların icra etdiyi ixtisaslı vəzifələrin əksəriyyətində milli kadrların çalışmağa başlaması ilə hələ 2018-ci ilin ortasında hədəfə nail olundu.

Keçən il BP-nin Azərbaycanda yüksək vəzifə tutan yerli işçilərinin sayı 358-ə çatdı. Bu, yerli ofisdə işləyən yüksək vəzifəli işçilərin 63 faizdən çoxu və ondan əvvəlki ilə nisbətən 3 faiz artması deməkdir. Yüksək vəzifəli yerli işçilərin təxminən 18 faizi qadınlardır və onlar qurudakı, eləcə də dənizdəki əməliyyatlarda, insan resursları və maliyyə sahəsində çalışırlar. Bundan əlavə, 2018-ci il ərzində daha 41 yüksək vəzifəli Azərbaycan vətəndaşı BP-nin qlobal biznesi üzrə təyinatla başqa ölkələrdə işləyirdi. Bu ilin birinci yarısında daha 10 nəfər yerli işçi şirkətin Böyük Britaniya, İraq, Rusiya və digər ofislərində rəhbər işlərə təyin olunub.

Keçən ilin sonunda qeyri-ixtisaslı işçi heyəti tam milliləşdirildi. Podratçıların öz milliləşdirmə planlarını hazırlayıb həyata keçirmələri üçün dəstəklənməsi davam edir. Bu işlərə təcrübə mübadiləsi, icra göstəricilərinin hazırlanmasına kömək və onların tətbiqinə nəzarət daxildir. Beləliklə, keçən ilin sonunda podratçıların və subpodratçıların milliləşdirilməsi də 90 faizə çatıb.

Təcrübə göstərir ki, işçi heyətini milliləşdirməklə yanaşı, azərbaycanlı mütəxəssislərin xaricdə, əcnəbilərin isə Azərbaycanda təyinatla çalışması inkişaf üçün çox faydalıdır. Keçən il şirkətin 78 nəfər yerli əməkdaşı BP-nin Azərbaycandan kənardakı müxtəlif obyektlərində əcnəbi mütəxəssis kimi işləyib. Onların təxminən üçdəbiri quru və dəniz əməliyyatları üzrə ixtisaslaşıb.

Azərbaycandakı əcnəbi əməkdaşların sayı isə keçən ilin sonunda 256 nəfər idi. Onların üçdəikisi Birləşmiş Krallıqdan, təxminən dörddəbiri isə ABŞ-dan gəlib. Qalanları Braziliya, Kanada, Misir, Gürcüstan, Hindistan, İndoneziya, Meksika, Oman, Trinidad və Tobaqo, eləcə də Türkiyədəndir.

Hər il keçirilən yay təcrübələri də düzgün kadr seçiminə müsbət təsir göstərir. Keçən il tələbələrin işə qəbulu proqramı çərçivəsində 670-ə qədər ərizə qəbul edilib. Nəticədə 40-a yaxın tələbə yay təcrübəçisi kimi işə götürülüb.

Kadrların inkişafı daim diqqət mərkəzindədir. Məsələn, təkcə 2018-ci ildə əməyin təhlükəsizliyi, texniki, idarəetmə və biznes davranışları üzrə regionda geniş çeşidli təlimlər keçirilib. Yerli əməkdaşlara öz ixtisas sahələri üzrə əlavə dərəcə və sertifikat almaqda yardım göstərilməsi davam edir.

Xəzər Təlim Mərkəzində quyuya nəzarət sertifikasiya təlimləri də müntəzəm olaraq keçirilir. Ötən il operatorların təlim simulyatorlarının optimallaşdırılması proqramı çərçivəsində nəzarət otaqlarında çalışan 50-dən çox texnik üçün sahəyə aid müxtəlif təlimlər təşkil edildi.

BP Azərbaycan şirkətinin 2018-ci ilin yekunlarına aid "Davamlı inkişaf haqqında hesabat"ında deyilir: "Azərbaycanda güclü milli işçi qüvvəsi yetişdirmək əsas prioritetlərimizdən biri olaraq qalır. İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmayə qoyur, yeni istedadları cəlb edir və bütün karyera səviyyələrində işçilərimizə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edirik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Füzuli və Cəbrayıl rayonlarının işğalından 26 il keçir

# Ümidlər ölmür...

## Lələtəpədən görünən yalnız Füzuli deyil, həm də zəfər yürüşləridir









Torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğala məruz qalan Azərbaycanın şanlı zəfər yürüşünə start verilməsinə doğru 3 il öncə daha bir addım atıldı: Prezident, Ali Baş Komandan İlham Əliyev ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən düşmən tərəfə 2016-cı ilin "aprel dərsi"ndən düzgün nəticə çıxarmağı xatırlatdı: "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!"





Tarixin elə səhifələri var ki, onlar yazılmasa da, maddi mədəniyyət abidələrində öz əksini tapır. Belə müqəddəs abidələr məskəni olan Azərbaycanın da tarixinin oxunulmamış səhifələri, yaxud daşlaşmış mədəni məbədləri az deyil. Zaman, quruluşlar bir-birini əvəzlədikcə həmin abidələrə baxış da dəyişib: sonrakı dövrlərdə "qəzəb"ə tuş gələrək bir çoxu yer üzündən silinib.

Təkcə Azərbaycanın deyil, dünyanın ən qədim tarixə malik diyarlarından biri olan Füzuli rayonunun ərazisindəki Azıx mağarası da ilk insan məskəni kimi bəşəri sivilizasiyanı heyran qoyurdu. Bu uludan-ulu məkan minilliklər boyu müxtəlif məşəqqətlərin şahidi olub. "Böyük Ermənistan" uğrunda aparılan çirkin, şovinist siyasət Azərbaycanın, sözün əsl mənasında, dilbər guşəsi olan Qarabağın nəinki dağlıq hissəsində, onun digər ərazilərində də öz izlərini qoydu. İşğala məruz qalan qədim yaşayış məskənlərimizdən biri də ərazilərinin xeyli hissəsi 26 ildir Ermənistan silahlı birləşmələrinin nəzarəti altında qalan, vaxtilə dünyanın etnoqraflarını heyrətdə qoymuş Azıx mağarasının yerləşdiyi Füzuli rayonudur.

Dünya üçün maraqlı görünən Azıx mağarası füzulililər üçün uzun müddət vahiməli, əjdahaların və digər sehrli canlıların yaşadığı yer idi. Ona görə də bu sirri açanlardan savayı, kimsə ora girməyə cəsarət etməyib. Beləliklə, Azıx uzun müddət qapalı şəkildə qalıb. Buradakı tapıntı üzərində aparılan tədqiqatlar təsdiqləmişdir ki, o, ən azı, 350-400 min illik bir dövrü əhatə edir.

Füzulidə Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra tarixi-mədəni abidələr də vardı. Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəllidə hamar daşlardan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndindəki Hacıqiyasəddin məscidi (1862-ci il), karvansara (1864-cü il), Füzuli şəhərindəki Hacı Ələkbər məscidi (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulmuş at, qoç fiqurları tariximizin dərin qatlarından soraq verən, mədəniyyətimizin inkişafını, ulu etnikə malik olduğumuzu təsdiqləyən tutarlı faktlar olmuşdur. Təəssüf ki, erməni vandalizminin qurbanlarına çevrilmiş tarixin bu daş salnaməsinin sonrakı taleyi bizə məlum deyil. Digər işğal olunmuş rayonlarımızın ərazisindəki kimi, burada da daşnaklar tarixi-memarlıq abidələrinə divan tutmuş, müqəddəs ziyarətgahları yerlə yeksan etmişlər.






Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, 75 kənd və digər yaşayış məntəqələri olub. Bu yerlərdən axan Qusarçay, Köndələnçay, Qozluçay, Çərəkan xan Arazın hövzəsinin çayları - qollarıdır.

İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və digər obyektlər var idi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı barışmaz mübarizə aparan Füzuli əhalisi doğma torpaq uğrunda çox itki verib. Müharibənin bu ərazidə əsas ağırlığını rayonun Yağlıvənd, Qacar, Divanallar, Yuxarı və Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkib. 1100 nəfərdən çox şəhid, yüzlərlə itkin vermiş Füzulidə bu gün 1500-dək əlil və şikəst də Qarabağın qaytarılması uğrunda hər an döyüşlərə atılmağa hazırdır və onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Axı 26 il öncə itkin düşmüş, girov götürülmüş 113 füzulilidən hələ də soraq yoxdur. Axı erməni təcavüzü nəticəsində Füzulidə doğulub o yerlərdə boy ata bilməyən uşaqlardan 36361 nəfəri zərər çəkib ki, onlardan 155-i yetim qalıb.

Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, düşmən əsarətində olan digər torpaqlarımız da işğaldan azad ediləcək və orada Füzulidəki kimi, yeni həyat başlayacaq. Budur, artıq Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərində salınmış 13 qəsəbə və 20 kənd füzulililərin doğma torpaqla ünsiyyət yerinə çevrilib. Həmin qəsəbələrdən 12-si məhz işğaldan azad edilən ərazidə yeni salınıb və məcburi köçkün ailələri burada məskunlaşıb. Hazırda burada 50 min nəfərdən artıq məcburi köçkün ailəsi yaşayır.

Füzuli rayonu da tamamilə işğala məruz qalmış rayonlarımızdan idi. Ulu Öndər Heydər Əliyevin bir çağırışı ilə 1994-cü ildə Füzuli rayonunun müəyyən hissəsi, sonradan isə Lələtəpə yüksəkliyi, Cəbrayılın Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunubsa, demək, separatizmin qurbanlarına çevrilmiş digər ərazilərimizi də erməni təcavüzkarlığından - əsir və girovluqdan xilas edəcəyik! Bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir! Bunu Azərbaycanın dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündən-günə güclənərək NATO standartları səviyyəsində formalaşan, 2016-cı ilin aprel ayının əvvəllərində ikigünlük zəfər yolu keçərək düşmənin bağrını yaran Milli Ordumuzun hərtərəfli gücü, qüdrəti və xalqımızın mübariz ruhu deyir!

### Çıraqlar sönmür...

*Şuşaya yol Cəbrayılın Cocuq Mərcanlısından keçir*

1993-cü il avqustun ortalarında Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın cənub istiqamətində başlayan genişmiqyaslı hücumu bir həftə sonra, daha dəqiq desək, ayın 23-də Cəbrayıl və Füzuli rayonlarının böyük hissəsinin işğalı ilə nəticələndi.

Xatırladaq ki, ondan bir ay öncə, iyulun 23-də erməni quldur birləşmələri Ağdamı işğal etmişdilər. Ağdama qədər isə Qarabağın qala qapıları sayılan Laçın, Şuşa və Kəlbəcər düşmən əsarətinə keçmişdi.

Cəbrayılın işğalı həm də Azərbaycanın Arazboyu zonada yerləşən daha iki rayonunun - Qubadlı ilə Zəngilanın mühasirəyə düşməsi demək idi. Rayonun ərazisi 1050 kv.km, əhalisi təxminən 57 min nəfər idi. Hazırda rayonun (Cocuq Mərcanlıdan savayı) 80-dən çox yaşayış məntəqəsi işğal altındadır.

Zəngin yeraltı sərvətlərə və əsrarəngiz təbii gözəlliyə malik Cəbrayıl rayonu 1930-cu ildə yaradılıb. Rayonda 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diri dağın özünəməxsus əsrarəngiz təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib.

Cəbrayıl rayonunun işğaldan azad edilən yeganə yaşayış məntəqəsi olan Cocuq Mərcanlı isə 24 ildən sonra özünün doğmalarını yenidən qoynuna aldı. Azərbaycan Ordusunun qısamüddətli Aprel döyüşlərində işğaldan azad etdiyi Lələtəpə yüksəkliyinə sığınmış Cocuq Mərcanlı kəndinin sakinlərindən 50 ailənin doğma yurda qayıdışı üçün yeni salınan qəsəbə düşmənə ciddi siqnal və göz dağı oldu. Çünki bu, əslində, Azərbaycan torpaqlarının bir qarış torpağının belə düşmən əsarətində qalmayacağına dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin verdiyi bəyanatın real nəticəsidir.

Milli-mənəvi dəyərlərimizin, tarixi və mədəni abidələrimizin zəngin, həm də qədim nümunələrini qoynunda minilliklər boyu saxlayan, 82 kəndi, 74 məktəbi, 12 mədəniyyət evi, 32 klubu olan Cəbrayıl rayonu erməni vandalizminin qurbanına çevrildi. Rayonun münbit və məhsuldar torpaqları kəhrizlərdən başqa, Həkəri və Araz çaylarından qidalanırdı.

Xatırladaq ki, Ermənistanın təcavüzkarlığı daha da genişlənərək intensiv xarakter alanda rayonun müdafiəsinə qalxanlar az deyildi. Təkcə Cəbrayıl şəhərinin işğalı günü (23 avqust 1993-cü il) 50 nəfər canını torpağa qurban verdi. Ümumilikdə isə Azərbaycan torpaqlarının müdafiəsi uğrunda 246 cəbrayıllı şəhid olub, 91 nəfər əsir və itkin düşüb, 177 nəfər isə əlil olub.

Rayonun ərazisində tarixi-memarlıq abidələri az deyildi. Cəbrayıl şəhərindəki Sultan Məcid hamamı, Xudayarlı kəndindəki Dairəvi və səkkizguşəli, Şıxlardakı Dairəvi türbə, Xudafərin körpüləri, Diri dağdakı Qız qalası, Dağtumasdakı Başıkəsik günbəz, Gordubaba dağındakı məzar da məhz həmin mədəniyyət və dini məbədlərdən sayılırdı. "Hacı Qaraman", "Cəbrayıl ata", "Dül-dül", "Mazannənə" ziyarətgahları və s. Dağtumasdakı "Tumas ata", "Divlər sarayı", Mahmudludakı "Canqulu" və "Qumtəpə" kurqanları, Tatardakı Siklop tikililər - qədim arxeoloji abidələr isə sırf dini xarakterli idi ki, hər biri inanc yerinə və ziyarətgaha çevrilmişdi.

Tarixin qanlı-qadalı səhifələrini vərəqlədikcə düşmənin məkrli siyasəti ilə yanaşı, xalqımızın torpağa, vətənə məhəbbətini, bu yolda ölümün gözünə dik baxdığını, qorxmazlığını və cəsarətini də görürük. Belə olan təqdirdə Ali Baş Komandan cənab İlham Əliyevin söylədiyi kimi, bir qarış torpağımızın da düşmən əsarətində qalmasına imkan verməyəcəyik. Qarabağın qara günlərinə səbəb olan düşmənin bugünkü vəziyyəti də təsdiqləyir ki, özgə torpağında açılan göz çaş, imək tutan diz taqətsiz və şikəst olur...

Kiçik Qafqazın mədəniyyət zirvəsi sayılan Şuşaya yol Cocuq Mərcanlıdan keçir. O yolun açılmasına isə az qalıb...

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Tarixin ibrət dərsi

# Çaldıran döyüşündən 505 il keçir

**1514-cü il avqustun 23-ü... Maku şəhəri yaxınlığında, Çaldıran düzündə cahana hökm etmək cürətində olan iki türk ordusu üz-üzə dayandı. Qanlı döyüşün başlaması artıq qaçılmazdı. Səfəvi və Osmanlı döyüşçüləri hücuma keçəcək və türk millətinin tarixinə fəlakət, faciə dolu bir səhifə yazacaqdılar...**




### Döyüşə qədər nələr baş vermişdi...

1501-ci ildə hakimiyyətə gələn Səfəvilər dövləti Şah İsmayıl Xətainin (1486-1524) sərkərdəlik və döyüşçü məharəti ilə getdikcə güclənirdi. Şahın başçılığı ilə igid və sədaqətli qızılbaşlar ordusu Ağqoyunluların süqutundan sonra qısa müddətdə tarixi Azərbaycan torpaqlarını və ona yaxın əraziləri birləşdirməyə müvəffəq oldu.

Səfəvilərin hakimiyyətini möhkəmləndirməməsinə çalışan, bunun üçün Ağqoyunlu rəhbərlərinə yardım göstərən Osmanlı hökmdarının səyləri boşa çıxdı. Səfəvilər dövlətinin zəfərləri isə Sultanı II Bəyazidi daha da təşvişə saldı. Ancaq o, Səfəvi hökmdarı ilə döyüşməyə cürət etmədi və 1504-cü ildə Səfəvilər dövlətini tanıdı. Digər tərəfdən, 1481-1512-ci illərdə hakimiyyətdə olan Sultan II Bəyazidi daha çox ölkənin mədəni inkişafı düşündürürdü. Tədqiqatçılar Səfəvilərin gözəl şair olan hökmdarı I Şah İsmayılla II Bəyazid arasında yaxşı münasibət olduğunu yazırlar.

O zaman Osmanlı hökumətinin daxilində gedən çəkişmələr, taxt-tac sevdası davam edirdi. II Bəyazidin üçüncü oğlu böyük qardaşlarını qətlə yetirməklə özünə hakimiyyətə gəlmək üçün yol açdı. I Sultan Səlimin (1512-1520) dövründə Osmanlı dövlətinin qızılbaşlarla münasibəti dəyişdi. Hakimiyyətə qardaş qırğınları ilə gəlmiş yeni sultan planlar qurmağa başladı. O, Avropa ölkələri ilə sazişlər bağladı, yardım üçün Mavərənnəhrin özbək padşahı Ubeydulla xanın razılığını aldı.

Sultan I Səlim babası Fateh Sultan Mehmet kimi ölkənin ərazilərini genişləndirmək istəyirdi. Bu yolda ən böyük maneə isə I Şah İsmayıl və onun qüdrətli ordusu idi. Hökmdarlar arasında münasibətlər gündən-günə kəskinləşir, bir-birinə söyüş dolu məktublar göndərirdilər.

Osmanlı sultanı 1514-cü ilin yazında Ədirnədə gözlənilməz toplantı keçirdi. Toplantıda Osmanlı alimləri qızılbaşlarla savaşın bütün müsəlmanların müqəddəs vəzifəsi olduğunu söylədilər. Sultanın vəzirləri isə bildirdilər ki, Şah İsmayılla savaş qorxulu olacaq.

Sultanın göstərişi ilə ölkənin hər yerindən qoşun yığıldı. 140 min nəfərlik bir ordu yaradıldı və qızılbaşlarla vuruşa hazır vəziyyətə gətirildi.

### Şah İsmayılın sadiq və igid qızılbaşları...

I Şah İsmayılın ən mühüm qərarlarından biri dini islahat keçirilməsi oldu. O, hələ 1501-ci ilin payızından, Təbrizə daxil olduğu ilk günlərdən islamın şiə təriqəti, daha dəqiqi, imamilər təriqətini dövlət dini elan etdi.

...Şeyx oğlu Şah İsmayılın bir sözü ilə tərəddüd etmədən ölümə getməyə hazır olan mürşidləri onun əmrinə müntəzir idilər. Onların arasında anadolulular da vardı. Hələ Ərdəbil dövründə Səfəvilərin hərbi-siyasi qüvvə kimi meydana çıxmalarında, hakimiyyətə gəlmələrində Anadoludakı türk-qızılbaş tayfaları əhəmiyyətli rol oynamışdı. Sonrakı illərdə də birbaşa hakimiyyəti altında olmasalar da, onların Səfəvilərlə sıx əlaqələri vardı. Səfəvilərlə döyüşə hazırlaşan Osmanlı hökuməti üçün bir qüvvələr böyük qorxu, xof yaradırdı. Çünki müharibə ərəfəsində imperiya ərazisində yaşayan qızılbaşlar üsyan qaldıraraq Sultan I Səlimə böyük zərbə vura bilərdilər. Ona görə də sultan çox qəddar bir qərar verərək onların təxminən 40 minini sürgün və edam etdirdi. Beləliklə, Sultan I Səlim Yavuz Çaldıran döyüşünədək Anadoludan gözlənilən təhlükələrdən canını qurtara bildi.

Sultan I Səlimin qoşunu Osmanlı-Səfəvi sərhədi boyunca axan Çaysu çayını keçib Ərzincana daxil oldu. Ərzincan hakimi Nurəli Xəlifə Rumlu Şah İsmayılın göstərişiylə şəhərdən çıxıb Azərbaycana doğru çəkildi. Osmanlı sultanı haqlı olaraq düşündü ki, bu, Şah İsmayılın siyasi gedişidir. Doğrudan da, Səfəvi hökmdarının niyyəti döyüşü yubatmaq, sultan qoşununu qışda sınağa çəkmək idi. Ancaq vəziyyət getdikcə gərginləşir, döyüş günü yaxınlaşırdı...

### Osmanlı sultanına meydan oxuyan şah

...Çaldıran düzü döyüş meydanına çevrildi. Səfəvilər tərəfdə mərkəzdə Nizaməddin Əbdülbaqinin, Məhəmməd Kəmunənin və Şərəfəddin Əlinin, sağ cinahda Durmuş xan Şamlının, sol cinahda isə Diyarbəkir hakimi Məhəmməd xan Ustaclının başçılığı altında qızılbaşların dəstəsi yerləşdi. Şah İsmayıl özü seçmə hissələrlə sağ cinahda idi. Osmanlı döyüş qüvvələrinin isə sağ cinahına Anadolu bəylərbəyi Sinan paşa, sol cinahına Rumeli bəylərbəyi Həsən paşa başçılıq edirdi. 300-ə yaxın top mərkəzdə artilleriyaya yerləşdirildi. Səvəvi döyüşçülərinin topları görə bilməmələri üçün onların qarşısında xüsusi hissələr düzüldü. Artilleriyanın arxasında piyada nişançılar sıralandı. Yeniçərilərin qarşısında və ətraflarında qatırları, dəvələri bir-birinə zəncirlərlə bərkidilmiş arabalarla birgə yerləşdirdilər. Topların sıraları da zəncirlərlə bağlandı. Sultan Səlim şəxsi hərbi dəstəsi ilə yeniçəri qüvvələrinin arxasında dayandı.

Çaldıran vuruşması 1514-cü il avqustun 23-ü səhər başladı. Sarı Pirə Ustaclının başçılığı ilə qızılbaş tayfalarından ibarət seçmə daimi ordunun döyüşçüləri - qorçilər şiddətli hücuma keçdilər. Osmanlı ordusu ağır itkilər verməli oldu.

Salnaməçilər döyüşdə Səfəvi hökmdarının və qızılbaş döyüşçülərinin böyük qəhrəmanlıqları barədə yazmışlar. Məlumatlara görə, I Sultan Səlim təhlükəsiz yerdə gizlənərək döyüşü izlədiyi halda Şah İsmayıl meydanda cövlan edərək onu təkbətək döyüşə çağırırdı. Sultan Səlim Səfəvi hökmdarının qarşısına ən yaxşı sərkərdəsi Əli bəy Malquçoğlunu göndərdi. Şah İsmayıl ilk zərbəsiylə Osmanlının yenilməz sayılan sərkərdəsini öldürdü.

Topsuz, tüfəngsiz qızılbaş ordusu sayca dəfələrlə az olduğu, Avropa nümunəsi ilə qurulmuş, o dövrün ən yüksək hərbi silah-sursatı ilə gücləndirilmiş Osmanlı ordusuna qarşı döyüşürdü. Bütün bunlara baxmayaraq, qızılbaşlar Çaldıranda böyük hünər göstərdilər.

### Çaldıran döyüşünün ağır nəticələri...

Qızılbaşlar Məhəmməd xan Ustaclı, Sarı Pirə Ustaclı, Hüseyn bəy Lələ Şamlı, Xadim bəy Xülafə kimi sərkərdələrini itirdilər. Döyüş meydanında yaralanmış şah ordusunun sağ qalan hissəsi ilə mühasirəni yarıb ölkənin daxilinə doğru çəkilməli oldu. Çaldıranda osmanlılar da az qurban vermədilər. Sərkərdələrindən Həsən paşa, Əli bəy Malquçoğlu, Üveys bəy, Süleyman bəy həlak oldular. Ayrı-ayrı mənbələrdə bu döyüşdə həyatını itirənlər barəsində fərqli, ziddiyyətli məlumatlar yer aldı. Şərəf xan Bitlisi "Şərəfnamə"də qızılbaşların görkəmli sərkərdələrindən əlavə 5 min süvarinin də həlak olduğunu yazdı. Səfəvi salnaməçiləri cəmi 5 min nəfərin öldüyünü və onlardan 2 mininin qızılbaş, 3 mininin isə osmanlı olduğunu bildirdilər. Osmanlı salnaməçiləri isə bu rəqəmin türklərdə 30-40 min, qızılbaşlarda isə bundan iki dəfə çox olduğunu yazdılar.

Hücuma keçən Osmanlı ordusu Xoy, Mərənd və Təbrizi ələ keçirdi. Ancaq qoşun Təbrizdə bir neçə gün qala bildi. Osmanlı ordusunda, xüsusən yeniçərilər arasında narazılıq artmışdı. Çünki yeniçərilər böyük hissəsi Səfəvi dini ideologiyasına çox yaxın olan bəktaşiliyə beyət edirdilər.

Sultan I Səlim geri çəkilən minlərlə sənətkar ailəsini İstanbula köçürməyi də unutmadı. Onlar 1509-cu ildə İstanbulda baş vermiş güclü zəlzələdən sonra şəhərdə həyata keçirilən bərpa işlərində çalışdılar.

Çaldırandakı məğlubiyyətin yaralarının sağalması çox çətin oldu. Səfəvilər dövləti bir sıra ərazilərini itirdi, hərbi-siyasi nüfuzuna böyük zərbə dəydi. Deyilənə görə, bu döyüşdəki məğlubiyyətdən sonra I Şah İsmayıl daha heç bir vuruşda iştirak etmədi. Bəlkə də Çaldıran döyüşü öncəsi verdiyi qərarlarını dönə-dönə yada saldı. O günədək böyük hərbi zəfərlər qazanmış I Şah İsmayıl cəngavər ruhlu, igid sərkərdə idi. O, odlu silaha yox, qılıncının və biləyinin gücünə arxalanmağı seçmişdi. Sayca da az olan döyüşçülərini topsuz-tüfəngsiz çıxarmışdı Sultan Səlimin ordusunun qarşısına. Döyüşdən qabaq sərkərdələrinin odlu silahların atəşindən yayınmaq üçün gecə hücumları təşkil olunması təklifini qəbul etməmişdi. Şah İsmayıl "Mən karvanbasan quldur deyiləm" demişdi.

Çaldıran döyüşü Sultan I Səlimin də şanlı zəfəri olmadı. Çünki Çaldıran düzündə ölən də, öldürən də, məğlub olan da, qalib gələn də türk millətinin övladlarıydı. İki böyük türk hökmdarı - Şah İsmayıl Xətai ilə Sultan I Səlim münasibətlərindəki anlaşılmazlıqları, bir-birinə bəslədikləri kin-küdurəti aradan qaldıra bilmədilər. Narazılıqların qanlı savaş meydanınadək gedib çıxmasında digər qüvvələrin də böyük rolu oldu. Belə ki, XVI əsrin başlanğıcında Şərqdə ciddi güc olan iki türk imperiyasının varlığı çoxlarını qorxuya salmışdı. Bir sıra Avropa ölkəsi də bu iki türk dövlətini bir-biri ilə vuruşdurmağa, zəiflətməyə çalışırdı...

Çaldıran döyüşündə qalib olmadı. Bu döyüş bir millətin tarixi yaddaşında ən böyük ibrət dərsi kimi qaldı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Sumqayıtda xatirə turniri keçirildi





**Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə M.Hüseynzadə adına stadionda Əməkdar məşqçi Tofiq Rzayevin xatirəsinə həsr edilmiş futbol üzrə 2010-cu il təvəllüdlü yeniyetmələr arasında respublika turnirinə yekun vurulmuşdur.**

Tədbirin açılış mərasimində bildirildi ki, bu gün Sumqayıt idmançıları beynəlxalq turnirlərdə uğurlara imza atırlar. Son illər tikilib istifadəyə verilmiş şahmat məktəbi, yaşayış massivlərində yaradılmış miniidman zalları gənc nəslin sağlam böyüməsində əhəmiyyətli rol oynayır. Belə zallardan dünyanın iri idman arenalarına çıxan gənclər onlara göstərilən etimadı doğruldur, ölkəmizə medallarla qayıdırlar.

Daha sonra turnirə start verildi. Sumqayıtın 6 komandası ilə yanaşı, Bakının 3 komandası, Füzuli, Siyəzən və Şabran rayonlarının komandaları qalib adı uğrunda mübarizə apardı. Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda "Sabah", "Sumqayıt" və "Ərgünəş" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutdular.

Turnirin qalib və mükafatçıları fəxri fərman, medal, kubok və hədiyyələrlə təltif olundular.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**"BakıTelefon Rabitəsi" MMC tərəfindən tələb olunan IPTV/OTT platformasının qurulması və istismar xidmətlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **1100 (bir min yüz) manat (ƏDV daxil) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**
**etender@gov.az**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **09 sentyabr 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **17 sentyabr 2019-cu il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **18 sentyabr 2019-cu il saat 15:00-da** dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Turanə Novruzova, tel: (+994 12) 493-22-99**

*Qeyd: "Bakı Telefon Rabitəsi" MMC tərəfindən 21 avqust 2019-cu il tarixdə verilmiş elanı nəzərə almamanızı xahiş edirik.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC təşviqat materialları və çap məhsullarının satın alınması ilə əlaqədar
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən təşviqat materialları və çap məhsullarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

**İştirak haqqı: 300 manat.**

**H/h: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/h: AZ82NABZ01350100000000071944**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 sentyabr 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **04 oktyabr 2019-cu il saat 18:00-dək** "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 oktyabr 2019-cu il** saat 15:00-da Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti digər maşın və avadanlıqların satın alınması üçün keçirilən
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - Digər maşın və avadanlıqların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| İştirak haqqı: | 500 (beş yüz) manat |
| Satınalan təşkilat: | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti |
| **VÖEN:** | **1300144711** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **Kod:** | **210005** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **H/h:** | **AZ18CTRE00000000000004788202** |
| **SWIFT** | **CTREAZ22** |

Büdcə gəlirlərinin təsnifat kodu - 142340
Büdcə səviyyəsinin kodu - 7
İstirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 04.09.2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11.09.2019-cu il saat saat 15:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 11.09.2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən ofis texnikasının və kompüterlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 02.08.2019-cu il tarixli qərarına əsasən, "Bestcomp Group" MMC şirkəti kotirovka sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 19.08.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Braziliyada rekord sayda meşə yanğınları qeydə alınıb

İlin əvvəlindən bəri Braziliyanın Amazoniya meşələrində rekord sayda yanğınlar qeydə alınmışdır. Bu barədə Braziliya Milli Kosmik Tədqiqatlar İnstitutu (İNPE) məlumat vermişdir.



Məlumatda deyilir ki, cari ilin yanvarından avqustunadək ölkədə təxminən 73 min yanğın qeydə alınmışdır. Halbuki 2018-ci il ərzində meşə yanğınlarının sayı 39 min olmuşdur. Yanğınların doğurduğu qatı tüstü bir neçə şəhəri bürümüşdür.

Yerli müşahidəçilər yanğınların sayının artmasını ölkə Prezidenti Jair Bolsonarunun fermerləri meşələri kəsməyə təşviq etmək və yanğınları isti havanın ayağına yazmaq siyasəti ilə əlaqələndirirlər. Ötən ay Bolsonaru İNPE-ni ağacların kəsilməsi barədə "səhv" məlumat təqdim etməkdə günahlandıraraq institutun direktorunu vəzifəsindən azad etmişdir.

## *Emmanuel Makron:* "Brexit sazişinə yenidən baxıla bilməz"



Fransa Prezidenti Emmanuel Makron Böyük Britaniyanın Baş Naziri Boris Consonun Londonla Brüssel arasında razılaşdırılmış Brexit sazişinin İrlandiya sərhədinə aid maddəsini ləğv etmək tələbi ilə razılaşmamışdır. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Makron qeyd etmişdir ki, britaniyalıların təklif etdiyi yeni şərtlər optimal variant deyil. O xatırlatmışdır ki, Avropa İttifaqı (Aİ) Şurasının sədri Donald Tusk da həmin şərtləri rədd etmişdir.

Bir neçə gün əvvəl Conson tələb etmişdi ki, Aİ sazişin İrlandiya-Şimali İrlandiya sərhədinə aid bəndini ləğv etsin. O, sözügedən bəndin ləğv olunacağı təqdirdə Brüssellə sazişin bağlanmasında "sürətli irəliləyiş" gözləyir.

"Bloomberg" agentliyi xəbər verir ki, hazırda Fransa "sərt" Brexiti oktyabrın 31-dən sonra Böyük Britaniya üçün ən çox ehtimal olunan ssenari sayır. Makronun ofisinin nümayəndəsi agentliyə müsahibəsində əlavə etmişdir ki, ABŞ Prezidenti Donald Tramp bu məsələdə Aİ-yə təsir göstərə bilməz.

## İran yeni zenit-raket kompleksini nümayiş etdirdi

İran hərbçiləri "yer-hava" tipli yeni mobil raketi təqdim etmişlər. Bu barədə yerli KİV xəbər verir.




Raket sistemi "Bavar-373" adlanır. İran mətbuatı onu Rusiyanın S-300 zenit-raket kompleksinin rəqibi sayır. Yeni raketlər rəqibin hava hədəflərini 65 kilometr hündürlüyədək və 300 kilometr uzaqlığadək aşkarlayıb məhv etmək iqtidarındadır. Sistem eyni vaxtda 100-dək hədəfi aşkar edə, altı hədəfə atəş aça bilir.

## Əfqanıstanda iki amerikalı hərbçi həlak oldu



Əfqanıstanda ABŞ-ın iki hərbi qulluqçusu həlak olmuşdur. Bu barədə NATO-nun "Qətiyyətli dəstək" əməliyyatının saytı məlumat vermişdir.

Həlak olan hərbçilərin adları açıqlanmır, həmçinin onların hansı şəraitdə öldüyü məlum deyil. Saytın məlumatında qeyd olunur ki, ABŞ Müdafiə Nazirliyinin siyasətinə uyğun olaraq döyüşdə ölən hərbi qulluqçuların adları onların yaxın qohumları məlumatlandırıldıqdan 24 saat sonra açıqlanır.

Əfqanıstan KİV-in məlumatına görə, bu il Əfqanıstanda ABŞ-ın azı 15 hərbçisi həlak olmuşdur.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli və Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biləsuvardan Nəbi Rüstəmov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mahmud Məmmədov və "Günay Bank" ASC-nin kollektivi Baratəli Piriyevə qardaşı

**MƏRDAN PİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi təşkilatın Maliyyə Departamentinin direktoru Kamal Piriyevə əzizi

**AŞAİQ ABDULLA OĞLU MANSUROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyevə atası

**MİRZƏAĞA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və kollektivi İctimai fənlər kafedrasının professoru Qabil Hüseynliyə əzizi

**RƏŞAD ATAKİŞİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2737
Qiyməti 40 qəpik